№40 (1035) 4-10 oktyabr 2018-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# Azərbaycan-Rusiya Regionlararası Forum keçirildi



Sentyabrın 27-də Heydər Əliyev Mərkəzində IX Azərbaycan-Rusiya Regionlararası Forumunun rəsmi açılış mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mərasimdə iştirak etmişlər.

Prezident İlham Əliyev çıxış edərək, bütün qonaqları salamlamış, Prezident Putinə Azərbaycanda olduğuna görə təşəkkürünü bildirmiş, ölkələrimiz arasında dostluğun, əməkdaşlığın bizim üçün çox qiymətli olduğunu vurğulamışdır. O demişdir:

- Rusiya Azərbaycan üçün idxal üzrə bir nömrəli tərəfdaşdır və bizim qeyri-neft sektorunun məhsullarının ixracı üzrə də bir nömrəli tərəfdaşdır.

Ölkələrimiz arasında, həmçinin qarşılıqlı investisiyalarla əlaqədar layihələr həyata keçirilir. Biz burada da müsbət dinamikanı görürük. Energetika, neft-qaz sahələrində çox möhkəm əlaqələr mövcuddur. Biz, mənim Rusiya Federasiyasına rəsmi səfərim çərçivəsində "Rossneft" ilə SOCAR şirkətləri arasında əməkdaşlıq barədə mühüm sənəd - müqavilə imzaladıq. Eləcə də, 20 ildən artıqdır ki, Azərbaycanda "LUKoil" şirkəti uğurla işləyir, bizim üçün mühüm investordur. Elektroenergetika sahəsində bizim enerji sistemləri paralel rejimdə işləyir. Biz, mənim sentyabr səfərim çərçivəsində yüksəkgərginlikli elektrikötürücü xəttin ikinci növbəsinin tikintisi ilə bağlı məsələləri müzakirə etdik. Bu xəttin tikintisi elektrik mübadiləsini daha çox nizama salmağa və bu sahədə üçüncü ölkələrlə əlaqələri genişləndirməyə imkan verəcək.

Biz nəqliyyat sahəsində çox fəal əməkdaşlıq edirik. Bizim birgə reallaşdırdığımız "Şimal-Cənub" layihəsi artıq öz nəticələrini verir. Ötən illə müqayisədə biz bu il həmin dəhlizlə yükdaşımaların nəqlinin 100 dəfədən çox artdığını görürük. Həm də bu, yalnız başlanğıcdır. Hesab edirik ki, bu dəhliz Avrasiyanın ən mühüm nəqliyyat xətlərindən biri olacaq, bununla da ölkələrimizin daha da yaxınlaşmasına kömək edəcək və tranzit potensialımızı artıracaq. Həmçinin qeyd etmək istərdim ki, təkcə Azərbaycan milli aviaşirkəti Rusiyanın müxtəlif şəhərlərinə həftədə 50-dən çox reys həyata keçirir. Əgər, Rusiyanın aviadaşıyıcılarını da əlavə etsək, biz vətəndaşlarımızın öz aralarında necə ünsiyyət saxladıqlarını və əlaqələrimizin intensivliyini görərik.

Turizm sahəsində də biz Rusiya vətəndaşları tərəfindən Azərbaycanı ziyarətin çox əhəmiyyətli dərəcədə artdığını görürük. Hələ başa çatmamış 9 ay ərzində 700 minədək rusiyalı Azərbaycanı ziyarət edib. Əminəm ki, bu rəqəm də gələcəkdə artacaq.

Bank sahəsində çox yaxşı əməkdaşlıq və perspektivlər mövcuddur. Azərbaycanda VTB kimi iri Rusiya bankı fəaliyyət göstərir. Yeri gəlmişkən, Azərbaycan bu bankın ən iri xarici səhmdarıdır. Həmçinin "Qazprombank" nisbətən bu yaxınlarda Azərbaycanın 400 milyon dollardan artıq dəyəri olan iri sənaye layihəsini maliyyələşdirib. Yəni, bütün bunlar bizim əməkdaşlığımızın mühüm elementləridir.

Maşınqayırma bizim əməkdaşlığımızın nisbətən yeni sahəsidir. Azərbaycanda artıq "KamAZ", "Ural" avtomobilləri buraxılır. Artıq yüzlərlə belə avtomobil konveyerlərdən düşürülüb. Eləcə də, bizim ölkəmizdə "QAZ" avtomobillərinin istehsalı haqqında razılıq əldə olunub. Yəni, biz bütün istiqamətlərdə çox səmərəli dinamika görürük və bütün bunlar bizim münasibətlərimizin ruhunu, xarakterini səciyyələndirir.

Əlbəttə ki, bizim münasibətlərimizin təməlində tarixi, mədəni əlaqələrimiz, xalqlarımızın yaxınlığı durur. Əlbəttə, biz birlikdə humanitar əlaqələrin inkişafı üzərində çox fəal işləyirik. Gələn ay Bakıda Rusiya və Azərbaycan prezidentlərinin himayəsi altında növbəti Humanitar Forum keçiriləcək. Bu, beynəlxalq Forum artıq humanitar xarakterli məsələlərin, mədəniyyətlərarası dialoqun, konfessiyalararası münasibətlərin müzakirəsi üçün mühüm qlobal meydana çevrilib. Azərbaycanda tədrisin rus dilində aparıldığı 341 məktəb, Rusiyanın aparıcı ali təhsil ocaqları olan Moskva Dövlət Universitetinin və Seçenov adına Tibb Universitetinin filialları fəaliyyət göstərir.

Həmçinin, mədəniyyət sahəsində çox sıx qarşılıqlı fəaliyyət var. Burada Rusiya-Azərbaycan münasibətləri barədə çox danışmaq olar, sadəcə, bugünkü forumun formatına görə hamısını əhatə etmək mümkün deyil. Amma biz münasibətlərin gələcəkdə də fəal inkişafına istiqamətlənmişik. Həmçinin düşünürəm ki, bizim gələcək əməkdaşlığımız çərçivəsində gələn il üçün nəzərdə tutulan Xalq Təsərrüfatının Nailiyyətləri Sərgisində Azərbaycan pavilyonunun açılması mühüm addım olacaq. Bu tarixi bina ötən əsrin ortalarında Azərbaycan pavilyonu olub, biz onu bərpa edirik. Düşünürəm ki, biz belə mühüm beynəlxalq sərgi meydanında iştirak edəcəyik və öz nailiyyətlərimizi nümayiş etdirəcəyik. Rusiya regionları ilə də bizim çox sıx münasibətlərimiz mövcuddur. Rusiya Federasiyasının 20-yə yaxın subyektinin Azərbaycanla müvafiq razılaşmaları var. Bizim Rusiya regionlarında, eləcə də Rusiya regionlarının Azərbaycanda ticarət nümayəndəlikləri açılır.

Çıxışının sonunda İlham Əliyev foruma uğurlar, ölkələrimizin və xalqlarımızın rifahı naminə nailiyyətlər arzulamışdır.

Forumda Rusiya Prezidenti Vladimir Putin çıxış etmişdir. Rusiya ilə Azərbaycan arasında münasibətlərdən danışarkən Putin qeyd etmişdir: "Dövlətlərimiz arasında münasibətlər, sözsüz ki, mehriban qonşuluq və qarşılıqlı hörmət prinsipləri əsasında qurulur. Biz hə-



# MDB Dövlət Başçıları Şurasının sədrliyi Türkmənistana verildi

Sentyabrın 28-də Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə görüşü olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak edib.

Tacikistan Prezidenti Emoməli Rəhmon çıxış edərək, ötən dövrdə ənənələrə uyğun olaraq ölkələr arasında münasibətlərin möhkəmlənməsinə və inkişafına xüsusi əhəmiyyət verildiyini qeyd edib, ölkəsinin MDB çərçivəsində fəaliyyəti barədə məlumat verib. Prezident Emoməli Rəhmon Tacikistanın Şuraya sədrliyi dövründə müxtəlif sahələr üzrə 40 iclasın keçirildiyini diqqətə çatdırmış, bildirmişdir ki, ötən dövrdə terrorizm, ekstremizm, narkotiklərin qeyri-qanuni dövriyyəsi, iqtisadi sahədə cinayətkarlıq, qanunsuz miqrasiya, insan alverinə qarşı mübarizə məsələləri qarşılıqlı fəaliyyətin əsas istiqamətlərini təşkil edib. Həmin gün Düşənbədə MDB Dövlət Başçıları Şurasının nümayəndə heyətlərinin iştirakı ilə keçirilən geniş tərkibdə iclasda Prezident İlham Əliyev iştirak edib.

İclasda Prezident Emoməli Rəhmon Tacikistanın sədrliyi dövründə Şuranın fəaliyyəti haqqında məlumat vermis, bu iclasın nəticəsi olaraq qəbul ediləcək qərarların Şuranın gələcək fəaliyyətinə töhfə verəcəyinə əminliyini ifadə etmişdir. Emoməli Rəhmon tərəfindən 2019-cu ildə MDB-yə sədrliyin Türkmənistana keçməsi barədə Şura iclasının qərarı elan edilmişdir.

Türkmənistan Nazirlər Kabinetinin sədr müavini Purli Ağamuradov bu qərara verdikləri dəstəyə görə dövlət başçılarına minnətdarlığını bildirmiş, sədrlik dövründə Türkmənistanın MDB məkanında əməkdaşlığın daha da genişlənməsi üçün səylərini əsirgəməyəcəyini vurğulamışdır.

MDB İcraiyyə Komitəsinin sədri-icraçı katib Sergey Lebedev Şuranın məhdud tərkibdə iclasında müzakirə olunmuş məsələlər barədə məlumat vermiş və Şuranın növbəti iclasının 2019-cu ilin oktyabrında Türkmənistanın paytaxtı Aşqabadda keçiriləcəyini diqqətə çatdırmışdır.

Rusiya Federal Məclisi Federasiya Şurasının sədri, MDB Parlamentlərarası Assambleyasının sədri Valentina Matviyenko kosmik fəzanın sülh məqsədilə tədqiqi və istifadəsi sahəsində əməkdaşlığa dair hazırlanmış Konvensiyanın müddəaları ilə iclas iştirakçılarını tanış etmişdir. Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy isə 1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 75 illiyinin bayram edilməsi ilə bağlı hazırlanmış sənəd barədə məlumat vermiş, hər iki sənəd yekdilliklə qəbul olunmuşdur.

İclasda bəzi prosedur məsələlərə baxılmış, sonra dövlət və hökumət başçıları iclasda müzakirə olunmuş bir sıra sənədləri imzalamışlar.

Sentyabrın 28-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun adından MDB dövlət başçılarının şərəfinə təşkil olunmuş rəsmi qəbulda Prezident İlham Əliyev iştirak etmişdir.

* * * *

Düşənbədə MDB Sammiti çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında söhbət olub. Tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına, tərəflərin təmas xəttində və Ermənistan ilə Azərbaycan arasındakı sərhəddə insidentlərin qarşısının alınması üçün atəşkəs rejiminin möhkəmlənməsinə dair danışıqlar prosesinə sadiq olduqlarını bildiriblər. Tərəflər müvafiq strukturlar arasında operativ əlaqə qurulması üçün mexanizmlərin yaradılmasını qərara alıblar.



# Dövlətlərimiz arasında münasibətlər mehriban qonşuluq və qarşılıqlı hörmət prinsipləri əsasında davam edir

mişə maraqlar balansı axtarırıq və onu tapırıq. Bu yaxınlardakı Soçi danışıqlarının gedişində, sözsüz ki, bizim dövlətlərarası əlaqələrimizin gələcək quruculuğu üçün əlavə normativ baza yaradan bir sıra sənədlər, razılaşmalar imzaladıq. Qeyd edim ki, indi Azərbaycan bazarında artıq Rusiyanın iştirakı ilə təxminən 700 birgə şirkət fəaliyyət göstərir. Birbaşa Rusiya sərmayələrinin ümumi həcmi isə bir milyard yarım dollardan çox təşkil edir. Qarşılıqlı, səmərəli biznes əlaqələrinin qurulmasına Rusiya-Azərbaycan İşgüzar Şurası böyük kömək göstərir. Təkcə ötən il bu şura ümumilikdə yarım milyard dollara yaxın məbləğdə dəyəri olan 42 birgə layihəni dəstəkləyib. Azərbaycanda Rusiyanın energetika korporasiyaları uğurla işləyirlər. "Rosneft" şirkəti Azərbaycanın Dövlət Neft Şirkəti ilə birgə yaxın vaxtlarda "Qoşadaş" neft-qaz yatağının kəşfiyyatına və mənimsənilməsinə başlayacaq. "LUKoil" Azərbaycanın enerji layihələrinə 4 milyard dollara yaxın sərmayə qoyub. Bizim neftin nəqli üzrə gələcək inhisarımız olan "Transneft" Azərbaycan neftinin Bakı-Novorossiysk neft kəməri ilə ixracının etibarlı tranzitini təmin edir.

Biz maşınqayırma sahəsində kooperasiyanın dərinləşdirilməsi üçün yaxşı imkanlar görürük. "KamAZ" işləməyə başlayıb. Orada artıq texniki yığım və avtomobillərə xidmət həyata keçirilir. "Avtovaz" "Lada" avtomobillərinin satışı üzrə Azərbaycanın bütün regionlarında geniş pərakəndə şəbəkə yaradıb. Respublikada 40-dan çox şöbə yaradılıb. Öz növbəsində Azərbaycandan olan sərmayədarlar Rusiyada kənd təsərrüfatı obyektlərinin inşasında iştirak edirlər. Onların arasında, məsələn, Nijeqorod vilayətində istixana kompleksidir. Sərmayələrin həcmi milyard rubldan artıq təşkil edir. Eləcə də Krasnodar diyarında ərzaq məhsulları buraxılışı üzrə birgə müəssisəni misal çəkə bilərəm.

2017-ci ildə Azərbaycanın kənd təsərrüfatı məhsullarının Rusiyaya satışı demək olar 12 faiz artıb. Bu, yarım milyard dollarlıq ümumi həcmdir. 30-dan çox Azərbaycan şirkətinin sentyabrın 17-dən 20-dək Moskvada Beynəlxalq Ərzaq Sərgisində iştirakı buna sübutdur".

Regionlararası əlaqələrin dövlətlərarası münasibətlərimizin mühüm tərkib hissəsi olduğunu qeyd edən Putin bildirmişdir ki, Rusiya Federasiyasının təxminən 70 regionu Azərbaycanın regionları ilə sıx işləyir.

Rusiya və Azərbaycanın birgə həyata keçirdiyi infrastruktur layihələrini qeyd edən Putin demişdir: "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin yaradılması davam edir. Bu, Avropa və Asiya bazarlarını yaxınlaşdırmağa yönələn, İran, Azərbaycan və Rusiyadan keçən dəhlizdir. Bu miqyaslı, həqiqətən irimiqyaslı böyük iş, yaxud təşəbbüs çərçivəsində ölkələrimizin inşaatçıları Samur çayı üzərində sutkada 37 mindən çox maşın buraxmaq qabiliyyəti olan yeni körpü tikirlər.

Xəzər dənizinin statusu haqqında Konvensiya da bizim dövlətlərimiz arasında qarşılıqlı faydalı kooperasiya üçün yeni imkanlar açıb. Artıq mövcud sənədlərin imzalanması Xəzər regionunda əməkdaşlıq üçün bizə yaxşı baza yaradır. Ümid edirik ki, Rusiya və Azərbaycan şirkətləri Xəzər regionunda perspektivli layihələrin, İlk növbədə, nəqliyyat, yük daşımaları, neft-qaz hasilatı, ekologiya və sözsüz ki, Xəzərin bioehtiyatlarının və biomüxtəlifliyinin qorunması sahəsində işlərin reallaşdırılması ilə fəal məşğul olacaqlar.

Turizm sahəsində ikitərəfli əlaqələr intensiv inkişaf edir. Yeri gəlmişkən, Azərbaycan sahibkarlarının sayəsində Yessentukidə sanator-kurort mərkəzi inşa edilib. Jeleznovodskda mehmanxana kompleksi ucaldılır. Həmçinin Xəzərdə birgə dəniz kruiz səyahətlərini inkişaf etdirməyi planlaşdırırıq.

Əlbəttə, Rusiya və Azərbaycan humanitar əməkdaşlığın genişləndirilməsinə xüsusi əhəmiyyət verirlər. Biz sözsüz ki, ölkələrimizin təhsil, mədəniyyət və elm sahələrində əlaqələrini gələcəkdə də hər cür stimullaşdırmaq niyyətindəyik".

* * * *

IX Azərbaycan-Rusiya Regionlararası Forumunun rəsmi açılışı mərasimi plenar iclasla davam edib.

Plenar sessiya Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Rusiyanın iqtisadi inkişaf naziri Maksim Oreşkinin sədrliyi ilə keçirilib.



Nazir Şahin Mustafayev bildirib ki, Azərbaycan və Rusiyanın dövlət başçıları arasındakı yüksək səviyyəli münasibətlər iki ölkənin əməkdaşlığının strateji xarakter almasına təkan verib. Rusiyanın Azərbaycanın idxal üzrə əsas tərəfdaşı olduğunu deyən nazir bildirib ki, Azərbaycan indiyədək Rusiya iqtisadiyyatına 1 milyard dollar, Rusiya isə Azərbaycan iqtisadiyyatına 4 milyard dollar sərmayə yatırıb. Azərbaycanda Rusiya kapitallı 760 şirkət fəaliyyət göstərir.

Nəqliyyat və daşımalar sahəsindəki əlaqələrə də toxunan Şahin Mustafayev Şimal-Cənub nəqliyyat marşrutunun hər iki ölkə üçün dividendlər gətirdiyini diqqətə çatdırıb. O, Cənubi Asiyadan Rusiyaya yük daşımaların dinamik şəkildə artdığını qeyd edib.

Humanitar sahədə də əməkdaşlığın genişləndiyini söyləyən nazir bu sahədə əlaqələrin gücləndirilməsində Heydər Əliyev Fondunun böyük töhfələrinin olduğunu vurğulayıb.

Azərbaycanla Rusiyanı tarixi əlaqələr birləşdirdiyini deyən rusiyalı nazir Maksim Oreşkin qeyd edib ki, mövcud imkanlar iqtisadi əməkdaşlığı daha da genişləndirməyə şərait yaradır. "Biz gömrük sahəsində əlaqələrə diqqət ayırırıq, tariflər aşağı salınıb. Hətta yaşıl dəhlizin yaradılması istiqamətində irəli gedirik. Böyük və kiçik biznesin əlaqələrinin inkişafına diqqəti artırmaq bizim məqsədlərimizdən biridir", – deyə nazir bildirib.

Rusiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Əli Hüseynli bu gün ikitərəfli münasibətlərin regionda bütün əlaqələrə təsir göstərdiyini, yeni əməkdaşlıq formatları yaratdığını deyib. O qeyd edib ki, Azərbaycan Rusiyanın regionda yeganə strateji tərəfdaşıdır.

Azərbaycan-Rusiya İşgüzar Şurasının məqsədinin iki ölkənin biznes nümayəndələri arasında əlaqələrin qurulması və genişlənməsi olduğunu deyən qurumun sədri Səməd Qurbanov bu məqsədlə görüşlərin, konfransların və forumların təşkil edildiyini qeyd edib. O, Rusiya regionlarında fəaliyyətinin daha da genişləndirilməsi istiqamətində fəaliyyət göstərdiklərini bildirərək rusiyalı biznesmenləri hərtərəfli əməkdaşlığa dəvət edib.

Rusiya-Azərbaycan İşgüzar Şurasının sədri Aleksey Repkin müştərək layihələrin sayının artırılması üçün bir neçə amilin əsas rol oynadığını qeyd edib. Aleksey Repkin deyib ki, hər iki ölkə sənayenin şaxələndirilməsinə təkan verməlidir: "Yüksək texnologiyalar sahəsində biz yaxşı əməkdaşlıq edə bilərik".

Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini Eldar Əzizov dövlət başçıları arasındakı yüksək səviyyəli əlaqələrin iki ölkə arasında regionlararası əməkdaşlığın inkişafına güclü təkan verdiyini bildirib. O, Bakının son illər Prezident İlham Əliyevin diqqəti sayəsində sürətlə inkişaf etdiyini, burada yeni müəssisələrin yarandığını, paytaxtın məşhur turizm şəhərlərindən birinə çevrildiyini söyləyib. Eldar Əzizov Bakının Həştərxan, Volqoqrad və digər Rusiya şəhərləri ilə sıx əməkdaşlığı haqqında məlumat verib.

Plenar iclasda Azərbaycan və Rusiya nümayəndələri çıxış edərək təmsil etdikləri regionların iqtisadi, turizm imkanları, mədəniyyəti haqqında məlumat veriblər. Sonra Azərbaycanın və Rusiyanın şirkətləri və biznes təşkilatları arasında sənədlərin imzalanması mərasimi olub. Plenar iclasda "dəyirmi masa"ların moderatorlarının hesabatı dinlənilib.

**Forumun "dəyirmi masa"larında Azərbaycan-Rusiya əməkdaşlığının aktual məsələləri müzakirə olunub**

***Sənaye və energetika: ikitərəfli əlaqələrin perspektivləri***

Heydər Əliyev Mərkəzində keçirilən IX Azərbaycan-Rusiya Regionlararası Forumu çərçivəsində təşkil olunan "Sənaye və energetika: ikitərəfli əlaqələrin perspektivləri" mövzusunda "dəyirmi masa"da hər iki tərəfdən dövlət və özəl sektoru təmsil edən nümayəndələr iştirak ediblər.

İqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycanın sənaye potensialı, uğurla həyata keçirilən sənayeləşmə siyasəti, ölkəmizdə yaradılan sənaye parkları və məhəllələri, bu sahədə Rusiya ilə birgə həyata keçirilən layihələr və əməkdaşlıq imkanları barədə məlumat verib. Nazir qeyd edib ki, Rusiya ilə birgə Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer", Pirallahı Sənaye Parkında əczaçılıq müəssisəsi layihələri həyata keçirilir, Gəncə Avtomobil Zavodu Rusiyanın "KamAZ" və "Ural" zavodları ilə əməkdaşlıq edir, "Azərmaş" və "QAZ" şirkətləri arasında birgə layihələr reallaşdırılır.

Rusiyanın iqtisadi inkişaf naziri Maksim Oreşkin isə çıxışında sənaye sahəsində əməkdaşlıq imkanlarına dair fikirlərini bölüşüb, bu sahədə əlaqələrin genişləndirilməsində Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan İşgüzar Şuralarının fəaliyyətinin əhəmiyyətini qeyd edib.

Azərbaycanın iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov ölkələrimizin sənaye potensialından və bu sahədə fəaliyyət göstərən müəssisələr arasında əməkdaşlıqdan danışıb.

Energetika nazirinin müavini Samir Vəliyev Azərbaycan-Rusiya enerji əməkdaşlığından, əlaqələrin genişləndirilməsi potensialından bəhs edərək, Azərbaycan və Rusiya arasında birgə yeni elektrik ötürücü xətləri tikintisinin mümkünlüyünü bildirib. O, Azərbaycan-Rusiya enerji əməkdaşlığı üzrə İşçi Qrupunun iclasının oktyabrın 5-6-da Moskvada keçiriləcəyini deyib.

Rusiya-Azərbaycan İşgüzar Şurasının sədri Aleksey Repik isə sənaye sahəsində iki ölkə arasındakı mövcud əməkdaşlıqdan danışıb, birgə layihələrin həyata keçirilməsinin əhəmiyyətini vurğulayıb.

"Dəyirmi masa"da müxtəlif dövlət qurumlarının və şirkətlərin nümayəndələri birgə əməkdaşlıq məsələlərini müzakirə edib, təqdimatlar keçiriblər.

**Turizm sahəsində əməkdaşlığın inkişafı**

Forumun "Turizm sahəsində əməkdaşlığın inkişafı" mövzusunda "dəyirmi masa"sında Azərbaycan və Rusiya tərəfindən dövlət qurumlarının və turizm şirkətlərinin nümayəndələri iştirak ediblər.

Azərbaycan Turizm Agentliyinin rəhbəri Fuad Nağıyev turizmin ölkəmizdəki sürətli inkişafından, bununla bağlı qəbul olunan dövlət proqramlarından, imzalanan fərman və sərəncamlardan, reallaşdırılan layihələrdən bəhs edib. Qeyd olunub ki, təkcə bu ilin ilk yarısında Rusiyadan Azərbaycana 600 mindən çox turist gəlib.

Rusiyanın Federal Turizm Agentliyinin rəhbəri Oleq Safonov iki ölkə arasında digər sahələrdə olduğu kimi, turizm sahəsində də əlaqələrin inkişaf etdiyini diqqətə çatdıraraq deyib: "Rusiya Xəzərdə kruiz turizminin inkişaf etdirilməsində maraqlıdır.Beynəlxalq kruiz şirkətləri yeni marşrutların yaranmasında maraqlıdır".

"Dəyirmi masa" çərçivəsində Federasiya Şurasının üzvü, Leninqrad vilayətinin dövlət hakimiyyəti orqanının nümayəndəsi İqor Fomin Rusiyanın turizm potensialına dair təqdimatla çıxış edib. O, martın 14-16-da Moskvada keçirilən "MITT 2018" beynəlxalq turizm sərgisində Azərbaycanın da təmsil olunduğunu xatırladıb.

"Turizm sahəsində ikitərəfli və çoxtərəfli layihələrin işlənib hazırlanması və həyata keçirilməsi zamanı əməkdaşlıq təcrübəsi" mövzusunda təqdimatla çıxış edən Qonaqpərvərlik sənayesi üzrə komitə sədri, "Delovaya Rossiya"nın icra komitəsinin rəhbəri Yelena Krivenkova Rusiya və Azərbaycanın turizm sahəsində böyük inkişaf perspektivlərinin mövcud olduğunu vurğulayıb. Sonra "Naftalan sanatoriyasının müalicəvi xüsusiyyətləri" barədə videoçarx nümayiş etdirilib. Naftalanın sağlamlıq mərkəzinin nümayəndəsi Mirağa Seyidov iştirakçılara buradakı otellərdəki xidmətlər barədə məlumat verib.

"Dəyirmi masa" çərçivəsində digər çıxışlar da dinlənilib.

**Aqrar sahədə əməkdaşlığın inkişafı**

2017-ci ildə Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı 4,2 faiz artıb. Ötən il Azərbaycandan Rusiyaya meyvə-tərəvəz ixracı 3,8 dəfə, pambıq ixracı isə 8,6 dəfə artıb. Bu göstəricilər aqrar sahədə ölkələrimiz arasında əlaqələrin yüksək səviyyəsindən xəbər verir.

Bu barədə Forumun "Aqrar sahədə əməkdaşlığın inkişafı" mövzusunda təşkil edilmiş "dəyirmi masa"sında danışılıb.

Azərbaycanın kənd təsərrüfatı nazirinin müavini İlham Quliyev bildirib ki, Azərbaycan və Rusiya arasında aqrar sahədə əməkdaşlıq ildən-ilə genişlənir. O, ölkəmizin Rusiya ilə birgə bu sahədə layihələrin reallaşdırılmasında, innovasiyaların tətbiqində maraqlı olduğunu diqqətə çatdırıb.

Rusiyanın kənd təsərrüfatı nazirinin müavini Sergey Lyovin isə Azərbaycanın aqrar məhsullarına Rusiyada böyük maraq olduğunu, hər iki ölkənin aqrar sahədə çalışan iş adamlarının uğurla əməkdaşlıq etdiyini vurğulayıb. Diqqətə çatdırıb ki, Rusiya Azərbaycana böyük miqdarda taxıl məhsulları, Azərbaycan isə Rusiyaya meyvə və tərəvəz məhsulları ixrac edir. Rusiya istehsalçıları Azərbaycana taxıl məhsulları ilə yanaşı, şəkər tozu, süd və digər kənd təsərrüfatı məhsulları göndərməkdə, birgə müəssisələr yaratmaqda maraqlıdırlar.

"Dəyirmi masa"da hər iki ölkənin kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən şirkətlərinin fəaliyyətinə dair təqdimatlar keçirilib, aktual məsələlər müzakirə olunub.

**Kiçik və orta sahibkarlıq sahəsində əməkdaşlıq**

Doqquzuncu Azərbaycan-Rusiya Regionlararası Forumu çərçivəsində keçirilən "Kiçik və orta sahibkarlıq sahəsində əməkdaşlıq" mövzusunda "dəyirmi masa"nın iştirakçıları kiçik və orta biznes sahəsində təcrübələrini bölüşüblər.

"Dəyirmi masa"da çıxış edən Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin idarə heyətinin sədri Orxan Məmmədov Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı, bu sahəyə göstərilən dövlət dəstəyi barədə məlumat verib. Agentlik tərəfindən görülən işlər barədə danışan Orxan Məmmədov qeyd edib ki, "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq, 2025-ci ilədək Azərbaycanda kiçik və orta biznesin payı ÜDM-də 35 faizə, məşğulluqda 40 faizə, ölkənin qeyri-neft ixracında isə 25 faizə çatdırılacaq.

Rusiyanın "Kiçik və Orta Sahibkarlıq Korporasiyası"nın icraçı direktoru Aleksandr Braverman isə Rusiyada kiçik və orta sahibkarlığın inkişafı istiqamətində görülən işlər barədə danışıb, belə tədbirlərin biznes dairələri arasında əlaqələrin genişləndirilməsində əhəmiyyətli olacağını deyib.



**Humanitar sahədə əməkdaşlığın möhkəmləndirilməsi**

Forumun "Humanitar sahədə əməkdaşlığın möhkəmləndirilməsi" mövzusuna həsr edilən "dəyirmi masa"sında çıxış edən Azərbaycanın təhsil nazirinin müavini Firudin Qurbanov dövlətlərimiz arasında münasibətlərin yüksək səviyyədə olmasının məmnunluq doğurduğunu bildirib.

"Azərbaycanda rus dilində təhsilə dövlət səviyyəsində diqqət yetirilir. Ölkəmizdə 120 mindən çox şagirdin oxuduğu 342 orta məktəbdə tədris həm də rus dilində aparılır, 16 məktəbdə isə tədris yalnız rus dilindədir. Ali məktəblərdə 150 ixtisasdan 105-i rus dilində də tədris olunur, 20 min tələbə təhsilini rus dilində alır", - deyə F.Qurbanov bildirib. O qeyd edib ki, azərbaycanlı gənclərin rus dilinə və ədəbiyyatına marağı artır. Hər il ölkəmizdə rus dili olimpiadaları keçirilir. Rusiyanın təhsil müəssisələrində də Azərbaycan dili və ədəbiyyatı fənni tədris olunur. Bundan əlavə, 2005-ci ildən Moskva Dövlət Linqvistik Universitetində Azərbaycan dili mərkəzi fəaliyyət göstərir. Bakıda Lomonosov adına Moskva Dövlət Universitetinin, Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları açılıb.

Rusiya XİN Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (Universitetinin) prorektoru Artyom Malgin bildirib ki, Azərbaycan və Rusiya arasında humanitar sahədə xüsusi münasibətlər var. Azərbaycanda rus dili, mədəniyyəti qorunub saxlanılıb, ruslar rahat şəraitdə yaşayırlar.

Mədəniyyət nazirinin müavini Rafiq Bayramov deyib ki, Azərbaycanla Rusiya arasında dostluq münasibətləri böyük tarixə malikdir. Bu münasibətlər Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan təməl üzərində daha da möhkəmlənir. Azərbaycanla Rusiya strateji tərəfdaş dövlətlərdir. Nazir müavini qeyd edib ki, Azərbaycan və Rusiya arasında irimiqyaslı mədəni layihələr həyata keçirilir.

"Dəyirmi masa"da təhsil, elm, mədəniyyət və idman sahələrində layihələrin həyata keçirilməsi, humanitar sahədə əlaqələrin daha da genişləndirilməsi imkanları müzakirə olunub.

**Nəqliyyat və tranzit yükdaşımaları sahəsində əməkdaşlığın möhkəmləndirilməsi**

Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə Forum çərçivəsində təşkil edilən "Nəqliyyat və tranzit yükdaşımaları sahəsində əməkdaşlığın möhkəmləndirilməsi" mövzusunda "dəyirmi masa"-da məlumat verib ki, Azərbaycan ilə Rusiya arasında zəruri normativ-hüquqi baza yaradılıb, avtomobil, dəmiryol və hava nəqliyyatına dair hökumətlərarası sazişlər imzalanıb. Hazırda ticarət gəmiçiliyinə dair sazişlərin layihələrinə baxılır.

"Dəyirmi masa"da çıxış edən iqtisadiyyat naziri Şahin Mustafayev deyib ki, iqtisadi əlaqələrin mühüm istiqamətlərindən biri sürətlə inkişaf etməkdə olan tranzit-nəqliyyat əməkdaşlığıdır.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov Şimal-Cənub layihəsinin inkişafından söhbət açaraq bildirib ki, Azərbaycan tərəfi Astara (İran) ərazisində terminal inşa edib, bu terminaldan artıq 195 min ton yük daşınıb. Həmin terminal işə düşənədək müvafiq dövr ərzində yolun həmin hissəsində cəmi 1700 ton yük daşınmışdı.

"Dəyirmi masa"da diqqətə çatdırılıb ki, əvvəlki illə müqayisədə bu il Şimal-Cənub nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmi 100 dəfə artıb.

**Qadın sahibkarlığının inkişafında əməkdaşlıq perspektivləri**

Forumun "Qadın sahibkarlığının inkişafında əməkdaşlıq perspektivləri" mövzusunda keçirilən növbəti "dəyirmi masa"sında Azərbaycan tərəfdən moderatorluq edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova tədbirin əhəmiyyətini vurğulayıb.

Rusiya ilə Azərbaycan arasındakı münasibətlərə toxunan komitə sədri qeyd edib ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə mühüm töhfələr verirlər.

Azərbaycan cəmiyyətində qadınların rolundan bəhs edən Hicran Hüseynova qeyd edib ki, 1918-ci ildə müsəlman Şərqində ilk dəfə olaraq Azərbaycanda qadınlara seçib-seçilmək hüququ verilib. Ölkəmizdə inkişaf etməkdə olan qadın sahibkarlığından danışan Hicran Hüseynova son illər Azərbaycanda qadın sahibkarlarının sayının xeyli artdığını diqqətə çatdırıb.

"Dəyirmi masa"nın Rusiyadan olan moderatoru, Rusiya-Ərəb İşgüzar Şurasının direktoru, "Biznes qadınları" Ümumrusiya İctimai Təşkilatının prezidenti Tatyana Qvilava qadın sahibkarlığının inkişafının bütün cəmiyyətlərə xeyir gətirdiyini diqqətə çatdırıb. O, Azərbaycanda qadın sahibkarlığın inkişafına göstərilən dəstəkdən məmnunluğunu bildirib, bu sahədə əlaqələrin genişləndirilməsi üçün böyük potensialın olduğunu söyləyib.

***Bununla IX Azərbaycan-Rusiya Regionlararası Forumu başa çatıb.***

# 100 illik yubiley tarixdə daim öz şərəfli yerini qoruyub, saxlayacaq

*"Bir xalq, bir dövlət olaraq, son bir həftədə ikinci böyük tarixi-siyasi hadisəni yaşadıq. Ötən həftənin şənbə günü, 15 sentyabr 2018-ci il tarixində Bakımızın işğaldan azad edilməsinin 100 illiyi geniş və təntənəli şəkildə qeyd olundu, paytaxtımızda Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə möhtəşəm, dünyaya səs salan parad keçirildi, hər iki dövlətin başçısı - cənab İlham Əliyevlə cənab Rəcəb Tayyib Ərdoğan paradda çox parlaq, tarixə qızıl hərflərlə yazılacaq geniş nitq söylədilər, Azərbaycan-Türkiyə qardaşlığının, birliyinin yalnız sözdə deyil, konkret əməldə ifadə olunduğunu bir daha dünyaya nümayiş etdirdilər. Bu gün isə cəmi bir neçə saat öncə Cümhuriyyət qurucularının, ilk müstəqil Azərbaycan dövlətinin - Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) tam demokratik əsaslarla formalaşdırdığı, Şərq-müsəlman aləmində ilk olan Azərbaycan Parlamentinin yaranmasının 100 illiyi geniş və təntənəli şəkildə qeyd olundu. Milli Məclisin 21 sentyabr tarixli xüsusi iclası Azərbaycan Parlamentinin 100 illiyinə həsr edildi və deyərdim ki, Azərbaycan tarixinə düşəcək növbəti bir əzəmətli hadisə yaşandı".*

***Bunu "İqtisadiyyat" qəzetinə açıqlamasında Milli Məclisin (MM) İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri akademik Ziyad Səmədzadə bildirib.***

O, qeyd edib ki, Azərbaycan Parlamentinin yaradılmasının 100 illiyinə həsr edilmiş təntənəli tədbirin keçirilməsi və burada çoxsaylı dost və qardaş ölkələrin, beynəlxalq təşkilatların nümayəndə heyətlərinin iştirakı özü artıq tarixi bir hadisə kimi qiymətləndirilməlidir.

Onun sözlərinə görə, bu tədbir bir daha Azərbaycanın şanlı və qürurlu dövlətçilik tarixinin, dünəninin və bu gününün dünya ictimaiyyətinə çatdırılması üçün bir vəsilə, bir imkan oldu.

Z.Səmədzadə bildirib ki, bütün dünya bir daha gördü ki, Azərbaycan xalqı yüksək dövlətçilik mədəniyyətinə, zəngin parlamentarizm tarixinə malikdir və hələ 100 il bundan əvvəl Şərqdə ilk demokratik respublika qurmaqla, insan hüquq və azadlıqlarına təminat verməklə, qadınlara səsvermə hüququ tanımaqla bunu sübut edib:

"Bu tarixi və mötəbər yubiley tədbirində çıxış edən Prezident İlham Əliyev Şərqdə ilk demokratik Cümhuriyyətin qurulmasını mühüm tarixi hadisə kimi səciyyələndirdi. Cümhuriyyətin və onun qurucularının fəaliyyətini yüksək qiymətləndirdiyini vurğuladı, bu il "Cümhuriyyət ili" çərçivəsində dövlət səviyyəsində bir sıra tədbirlərin keçirildiyini diqqətə çatdırdı. Bununla yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müasir Azərbaycan Respublikasının keçdiyi müstəqillik yoluna nəzər salaraq, olduqca əhəmiyyətli ümumiləşdirmələr apardı…"

**ZİYAD SƏMƏDZADƏ:** Dövlət başçısının da vurğuladığı kimi, son 15 il ərzində iqtisadi baxımdan Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmayıb…

…Dövlət başçısı həmçinin, ölkəmizin 1993-cü ildən sonra istər siyasi-iqtisadi, istər humanitar, sosial sferada, istərsə də beynəlxalq münasibətlər sistemində necə böyük uğurlara imza atdığını diqqətə çatdırdı. Dağlıq Qarabağ probleminin həlli məsələsinin vacibliyinə toxunan Prezident İlham Əliyev vurğuladı ki, işğal olunmuş torpaqlarda bütün infrastruktur dağıdılıb, milli sərvətimiz talan olunub, xalqımıza qarşı hərbi cinayət - Xocalı soyqırımı törədilib. Ermənistan münaqişənin yeganə həll yolunun Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə əlaqədar olmasına baxmayaraq, beynəlxalq təşkilatlar tərəfindən qəbul olunan qətnamələrə məhəl qoymur, işğalçılıq siyasətini davam etdirir.

"Bununla bağlı Ermənistanın yeni rəhbərliyi öz siyasətində ciddi dəyişikliklər etməlidir", - deyən Prezident İlham Əliyev bir daha qeyd etdi ki, Azərbaycan öz prinsipial mövqeyindən geri dönməyəcək. Çünki Dağlıq Qarabağ əzəli və tarixi Azərbaycan torpağıdır və ölkəmizin suverenliyindən kənar heç bir status alınmayacaq. Bu fikirlər həm problemin həlli ilə bağlı Azərbaycanın qəti mövqeyinin bir daha bütün dünyaya bəyan edilməsi, həm də son zamanlar Ermənistan rəhbərliyinin təxribatçı çıxışlarına cavab kimi səsləndirildi. Azərbaycanın həyata keçirdiyi siyasət sayəsində regional və qlobal əhəmiyyətli layihələrin həyata vəsiqə qazandığı və bunun regiona sabitlik və rifah gətirdiyi, eyni zamanda, ölkəmizə strateji müttəfiqlər qazandırdığı, işğalçılıq siyasəti ucbatından Ermənistanın bu layihələrdən kənarda qaldığı regional gerçəklik kimi təsvir edildi. Bununla yanaşı, ölkəmizin demokratik dəyərlərə sadiq qalması, Azərbaycanda yüksək tolerantlıq mühitinin olması, multikulturalizm ənənələrinin yaşaması və inkişaf etdirilməsi, hüquqi dövlət quruculuğunda əldə edilən nailiyyətlər qonaqların diqqətinə çatdırıldı.

Komitə sədrinin qeyd etdiyinə görə, Azərbaycan prezidenti, həmçinin ölkə parlamentinin - Milli Məclisin (MM) ölkənin ictimai-siyasi həyatındakı, islahatlar prosesindəki, beynəlxalq münasibətlər sistemindəki, parlament diplomatiyasındakı roluna toxunaraq, öz müsbət mövqeyini izah etdi. O, bildirdi ki, bu gün Azərbaycan uğurla inkişaf edir və bu inkişafda Azərbaycan parlamentinin rolunu xüsusilə qeyd etdi. Prezidentin sözlərinə görə, Azərbaycan Parlamenti həm Heydər Əliyevin dövründə, həm də bu gün öz fəaliyyəti ilə ölkəmizin müstəqilliyini möhkəmləndirir, inkişafını təmin edir, bu inkişafa öz töhfəsini verir. Yəni, bir çox qanunlar qəbul edilib ki, onlar həyatımızın bütün sahələrini əhatə edir, həmçinin qanunvericilik bazamız ən yüksək meyarlara cavab verir. Dövlət başçısı sonra "Biz bir çox beynəlxalq konvensiyalara qoşulmuşuq və azadlıqların təmin edilməsində, demokratik inkişafla bağlı siyasətimizin aparılmasında Azərbaycan Parlamentinin çox böyük rolu var. Azərbaycan Parlamenti ölkəmizdə çoxpartiyalı sistemin təkmilləşdirilməsində önəmli rol oynayır. Parlamentdə bir çox partiyaların nümayəndələri fəaliyyət göstərir və əlbəttə ki, onların müxtəlif məsələlərə fərqli baxışları var. Ancaq mən çox şadam ki, milli maraqlarla bağlı məsələlərdə bizim deputatlar bir nöqtəyə vurur və vətənpərvərlik göstərərək, Azərbaycan dövlətinin maraqlarını beynəlxalq müstəvidə müdafiə edirlər. Parlament diplomatiyası Azərbaycanda diplomatik sahədə önəmli rol oynayır. Mən qeyd etməliyəm ki, Azərbaycan deputatları beynəlxalq təşkilatlar çərçivəsində çox fəal iş aparırlar", - deyərək bəyan etdi ki, bu, Azərbaycan xalqı tərəfindən də qiymətləndirilir, onun özü tərəfindən də izlənilir, dəyərləndirilir.



"…Deməliyəm ki, doğrudan da, çox böyük iş aparılır. Azərbaycan deputatları bir çox parlamentlərarası assambleyalarda ölkəmizdə gedən proseslər, iqtisadi, siyasi islahatlarla bağlı Azərbaycan həqiqətlərini çatdırır, lazım olan vaxtda Azərbaycanı çox ciddi müdafiə edir, haqq-ədaləti bərpa edir, imkan vermirlər ki, Azərbaycana qarşı əsassız ittihamlar hansısa qərarlara gətirib çıxarsın", - deyə cənab prezident fikirlərini tamamladı. Komitə sədri isə bu sözləri Azərbaycan Parlamentinin 100 illik tarixi yubileyində Azərbaycan parlamentarilərinə, qanunverici orqanın üzvlərinə verilmiş ən böyük dəyər, qiymət adlandırır.

Z.Səmədzadənin bildirdiyinə görə, dövlət başçısının çıxışında ən mühüm məqamlardan biri hələ də dünyada ikili standartların mövcudluğu ilə bağlı olub.

Ölkə başçısı öz çıxışında bəzi beynəlxalq qurumların ölkəmizə qarşı işğalçı, dünyada sülhü, təhlükəsizliyi təhdid edən Ermənistanla müqayisədə daha çox ikili standartlar nümayiş etdirdiyini və bunların qəbuledilməz olduğunu xüsusilə vurğulayıb. O, "…Beynəlxalq təşkilatlar da gərək ciddi təhlil aparsınlar və özlərinə sual versinlər ki, necə ola bilər, Ermənistanda son müddət ərzində keçirilmiş parlament və prezident seçkilərinə beynəlxalq müşahidəçilər müsbət reaksiya vermişlər. Məgər onlar bilmirdilər ki, Ermənistanda bütün seçkilər kobudcasına saxtalaşdırılır? Bilmirdilər ki, orada əvvəlki rejimin hörməti sıfıra bərabərdir? Bilirdilər, ancaq hansısa səbəblərə görə göz yumurdular", -deyərək indi də Ermənistanda yaranmaqda olan yeni diktatura rejiminin eyni siyasəti apardığını vurğuladı və bildirdi ki, siyasi rəqiblərə qarşı zorakılıq həyata keçirilir, siyasi rəqiblər həbsə alınır, mətbuat nümayəndələrinə qarşı repressiyalar aparılır, mətbu orqanlar bağlanır, dövlət orqanları siyasi rəqiblərinin həbsi ilə bağlı açıq-aşkar göstərişlər verir, bu göstərişləri bütün dünya eşidir. Ancaq prezidentin də haqlı olaraq qeyd etdiyi kimi, bir dənə də olsun beynəlxalq təşkilat, xüsusilə mətbuat, media azadlıqları, insan haqları ilə bağlı olan təşkilat səsini çıxarmır. Azərbaycan prezidenti fikirlərini davam etdirərək, "Sual olunur, nəyə görə Ermənistanda gedən bu təhlükəli proseslərə beynəlxalq təşkilatlar reaksiya vermir? Bunun arxasında hansı səbəblər var? Bu, çox ciddi araşdırılmalıdır. Biz onsuz da yaxşı bilirik ki, bəzi beynəlxalq təşkilatlar tərəfindən Azərbaycana qarşı ikili standartlar siyasəti aparılır. Biz buna öyrəşmişik və buna qarşı mübarizə aparırıq. Bizim mübarizəmiz çox tutarlı arqumentlərlə dəstəklənir. Bayaq qeyd etdiyim kimi, deputatlarımız bizə qarşı aparılan çirkin kampaniyalarla bağlı öz sözlərini tutarlı arqumentlərlə deyirlər", - dedi və bəyan etdi ki, bizə qarşı irəli sürülən ittihamlar 100 faiz saxtadır, yalandır, ikili standartlar əsasındadır, siyasi məqsədlər güdür, ancaq bu hücumlar, bu ittihamlar bizim siyasi iradəmizə zərrə qədər təsir etmir və etməyəcək. Hesab edirəm ki, əlavə şərhə də yer qalmır. Hər şey burada sərrastlıqla, zərgər dəqiqliyi ilə ifadə olunub…".

Z.Səmədzadə, eyni zamanda, deyib ki, dövlət başçısının da vurğuladığı kimi, son 15 il ərzində iqtisadi baxımdan Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmayıb:

**"İqtisadiyyat 3,2 dəfə artıb və bu artım bu gün də davam edir. Həmçinin, ölkəmiz Davos Dünya İqtisadi Forumunun iqtisadiyyatların rəqabətqabiliyyətlilik hesabatına görə, dünya miqyasında 35-ci yerdədir". Dövlət başçısı çıxışında bu məqama da xüsusi toxunaraq, "Təsəvvür edin, dünyada 200-dən çox ölkə var. Azərbaycan 35-ci yerdədir. Rəqabətqabiliyyətliliyin hesablanması bütün sahələri əhatə edir, təkcə enerji resurslarını yox. Yenə də Davos Forumunun inkişaf edən ölkələr arasında inklüziv inkişaf indeksi üzrə hesablamalarına görə, Azərbaycan 3-cü yerdədir. Azərbaycan infrastrukturun səviyyəsinə görə dünya miqyasında 26-cı yerdədir. Bütün bunları biz yaratmışıq, yorulmaz fəaliyyət nəticəsində xalq-iqtidar birliyi sayəsində. Ona görə bizim iqtisadi inkişafla bağlı fikirlərimiz çox ümidvericidir və çox müsbətdir…", - deyə vurğuladı.**

> Biz bundan sonra da öz siyasətimizi aparacağıq. Bizim iqtisadi potensialımız da artır. İndi Ermənistanla Azərbaycan arasında fərq yerlə-göy qədərdir. Bu gün Azərbaycan iqtisadi cəhətdən inkişafda olan ölkədir, Ermənistan isə yoxsul, başqasının əlinə baxan, ianələrlə dolanan bir ölkədir. Biz, əlbəttə ki, bundan sonra da öz siyasətimizi aparacağıq…
>
> *İlham Əliyev*

Enerji siyasətinə gəlincə, ölkə başçısı bəyan etdi ki, bunun təsiri təkcə ölkəmizdə hiss olunmur, Azərbaycanın təşəbbüsü ilə bölgədə, Avrasiya məkanında həyata keçirilən layihələr böyük önəm daşıyır. Dövlət başçısı "Biz dənizləri birləşdiririk. Xəzər dənizini neft kəmərləri ilə Qara dənizlə, Aralıq dənizi ilə, Azərbaycanı isə qaz xətti ilə Avropa ilə birləşdiririk. Bu gün həyata keçirilən "Cənub Qaz Dəhlizi" bölgədə ən böyük infrastruktur layihələrindən biridir, ümumi dəyəri 40 milyard dollara bərabərdir. Demək olar ki, bu layihə enerji xəritəsini tamamilə yenidən yaradır", - deyərək onu da nəzərdə çatdırdı ki, Azərbaycan öz coğrafi vəziyyətindən bundan sonra da uğurla istifadə edəcək. Yəni, nəqliyyat mərkəzlərindən birinə çevrilməyimiz artıq reallıqdır və Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir. Dövlət başçısının qeyd etdiyi kimi, keçməyə də bilərdi, təbii ki, biz bu coğrafiyaya böyük sərmayə qoymasaydıq, əgər qonşu ölkələrlə çox yaxşı münasibətlərimiz olmasaydı.

"Əgər onun qonşularla münasibətləri yaxşı deyilsə, ölkə necə tranzit ölkəyə çevrilə bilər, bu, mümkün deyil. Ona görə də xarici siyasətimiz daxili vəziyyətimizin daha da yaxşı olmasına hesablanıb…", - deyə cənab prezident nöqtəni qoymuş oldu. Akademik Z.Səmədzadə xüsusi olaraq vurğuladı ki, "Tam əminliklə qeyd etmək istərdim ki, ölkəmiz bu siyasəti bundan sonra da davam etdirəcək. Azərbaycanın qısa tarixi dövr ərzində əldə etdiyi nailiyyətlər, sözün əsl mənasında, müstəqil dövlət olması, daim öz milli maraqlarından çıxış edə bilmə cəsarəti nümayiş etdirməsi yüz il əvvəl qurulan Xalq Cümhuriyyəti ənənələrinə sadiq qalmasının bariz nümunəsidir…".

Z.Səmədzadə 100 illik yubiley iclasında bir sıra ölkələrin parlament sədrlərinin, həmçinin nüfuzlu beynəlxalq təşkilatların rəsmi şəxslərinin çıxışlarına da toxunaraq, həmin çıxışları əhəmiyyətinə və önəminə görə yüksək dəyərləndirdiyini bildirib:

"Heç bir çıxışı və çıxışçını kənarda qoymaq, birini digərindən ayırmaq istəməzdim. Bütün çıxışlar bir-birindən maraqlı və regionumuz, bölgəmiz, bütövlükdə, dünyamız üçün əhəməyyətli idi. Çünki bütün çıxışlarda sülhə, təhlükəsizliyə, dostluğa, əmkdaşlığa çağırışlar səsləndirildi, Azərbaycanın, Milli Məclisin bu istiqamətdəki önəmli addımlarına, geniş fəaliyyətinə diqqət çəkildi, örnək, nümunə göstərildi. Bu baxımdan hesab edirəm ki, 100 illik yubiley tədbirində səsləndirilən fikirlər və təkliflər əməkdaşlıq əlaqələrinin gələcək inkişafında, qlobal və transmilli layihələrin icrasında, həyata keçirilməsində, dünyamızda sülhün və təhlükəsizliyin təmin olunmasında mütləq öz müsbət rolunu oynayacaq, müsbət töhfələrini verəcək.

**Ancaq bu yerdə bir vacib məqama da diqqət çəkmək istərdim, o da ondan ibarətdir ki, bu gün dünyada qloballaşma yaşanır. Qloballaşma ilə də milli suverenliklər arasında ziddiyyətlər dərinləşir. Çünki milli suveren dövlətlər dünyada hamı üçün eyni olan "vahid oyun qaydaları"ndan istifadəni məqsədəuyğun saymırlar.**

**Məsələn, bəzi beynəlxalq təşkilatların, iqtisad elmindən xəbəri olmayan bəzi "beynəlxalq ekspertlər"in bir çox tövsiyələri var ki, onlar milli iqtisadiyyatların əleyhinə, ziyanına işləyir. Bu gün tam liberallaşmanın tərəfdarı olan ölkələr belə, Dünya Ticarət Təşkilatının (DTT) prinsiplərinə əməl etmirlər, onları ciddi şəkildə pozurlar. Nəyə görə? Ona görə ki bu şəraitdə milli iqtisadiyyatların çətinliklərlə üzləşdiklərini görürlər. Bu gün ABŞ-la Avropa ölkələrinin daxili bazarın qorunması istiqamətində atdıqları addımlar DTT-nin digər üzv dövlətlərində ciddi etirazlarla qarşılanır.**

**Əgər inkişaf etmiş ölkələr DTT-nin prinsiplərini ciddi surətdə pozurlarsa, o zaman hansı əsaslarla, hansı məntiqlə Azərbaycanın DTT-yə daxil olmasını sürətləndirməyə çağırırlar?! Hesab edirəm ki, biz bu çağırışlara çox həsaslıqla, çox diqqətlə yanaşmalıyıq. Ciddi elmi təhlillər, araşdırmalar aparmalıyıq və xüsusilə də, ölkə iqtisadiyyatının mühüm sahələrinin, daha çox qeyri-neft sektorunun rəqabətliliyinin yüksəldilməsi ilə bağlı böyük işlərin görüldüyü bir şəraitdə çox ehtiyatla davranmalıyıq…"**

## Sahibkarlığın İnkişafı Fondunun xətti ilə 113 milyon manat güzəştli kredit verilib

Bu barədə iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov deyib. Nazir müavini qeyd edib ki, bu il geri qaytarılan vəsaitlər hesabına sahibkarlara minimum 170 milyon manat məbləğində güzəştli kreditin verilməsi təmin ediləcək.

Sahibkarlığa Kömək Milli Fondu fəaliyyət göstərdiyi müddətdə investisiya layihələrinin ümumi dəyəri 4,9 milyard manat olan 35 mindən çox sahibkara 2,2 milyard manat güzəştli kredit verib. Bildirilib ki, güzəştli kreditlərin 72 faizi aqrar sektorun, 28 faizi sənaye və digər sahələrin inkişafına yönəldilib.

Bu kreditlərin 75 faizi regionların, 25 faizi Bakı qəsəbələrinin payına düşüb.




## Daşınmaz əmlakın qeydiyyatında müasir metodlardan istifadə ediləcək

"Əmlak Məsələləri Dövlət Komitəsi daşınmaz əmlakın qeydiyyatı və bu sahədə tətbiq edilən yeniliklərlə bağlı vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində müasir metodlardan istifadə edir".

Bu sözləri oktyabrın 2-də Açıq Hökumətin Təşviqinə Dair Hökumət Vətəndaş Cəmiyyəti Dialoqu Platforması çərçivəsində "Daşınmaz əmlakın qeydiyyatında şəffaflıq, əlçatanlıq və innovasiyalar" mövzusunda ictimai dialoqda Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü Əliməmməd Nuriyev deyib.

Ə.Nuriyev vurğulayıb ki, çıxarışların elektron formata keçirilməsi, qeydiyyat sənədlərinin verilmə müddətinin azaldılması vətəndaşlar üçün yaradılan rahat şəraitdən xəbər verir.

Tədbirdə qeyd edilib ki, komitə tərəfindən istifadəyə verilən 39 elektron xidmətin 26-sı daşınmaz əmlakın qeydiyyatı sahəsinə aiddir.

"Azərbaycanda ilk dəfə olaraq mülkiyyət üzrə çıxarışlar elektron formada verilir, prosedurlar tam olaraq elektronlaşdırılıb.

Belə ki, 3 prosedur 1 addımda həyata keçirilir. Hazırda isə 8 minə yaxın elektron çıxarış sahibi var".

Bu fikirləri isə həmin tədbirdə Əmlak Məsələləri Dövlət Komitəsinin sədr müavini Rafiq Cəlilov deyib.

Sədr müavini qeyd edib ki, hazırda digər sahələrlə yanaşı, daşınmaz əmlak sahəsində də genişmiqyaslı işlər həyata keçirilir, qeydiyyatın sadələşdirilməsi, əlçatanlığın təmin edilməsi üçün qanunvericilikdə bir sıra dəyişikliklər edilib.

# Görkəmli dövlət xadimi Murtuz Ələsgərovun 90 illik yubileyi münasibətilə beynəlxalq elmi-praktiki konfrans keçirilib

Oktyabrın 2-də Bakı Dövlət Universitetində (BDU) Azərbaycan Respublikası Milli Məclisinin, Yeni Azərbaycan Partiyasının və BDU-nun birgə təşkilatçılığı ilə görkəmli dövlət xadimi, Əməkdar hüquqşünas, professor Murtuz Ələsgərovun anadan olmasının 90 illik yubileyi münasibətilə "Azərbaycanda hüquq elminin müasir inkişaf istiqamətləri və tendensiyaları" mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilib.




Konfransı açan BDU-nun rektoru, akademik Abel Məhərrəmov görkəmli professorun hüquq elmi sahəsindəki böyük xidmətlərindən bəhs edib. Bildirilib ki, Murtuz Ələsgərovun həyatının böyük bir hissəsi Bakı Dövlət Universiteti ilə bağlı olub. Ona görə də universitetdə Murtuz Ələsgərovun yubileyi ilə bağlı yüksək səviyyəli konfransın keçirilməsinin müstəsna əhəmiyyəti var: "Belə şəxsiyyətlər xalqımız, millətimiz üçün böyük tapıntıdır. Murtuz Ələsgərov görkəmli ictimai-siyasi xadimlərdən biri idi. O, elm sahəsində, xüsusən hüquq elminin inkişafında çox böyük xidmətlər göstərmiş şəxsiyyətdir. Çoxsaylı qanunvericilik aktlarının işlənib hazırlanmasında, qəbul edilməsində bilavasitə iştirak edib. Eyni zamanda, müəllimlər müəllimi olan Murtuz Ələsgərov maarifçilik tariximizdə dərin izlər qoyub. Onun adı elmimizin, təhsilimizin, dövlətçiliyimizin tarixinə qızıl hərflərlə yazılıb".

Murtuz Ələsgərovun həyatı və fəaliyyəti barədə danışan akademik qeyd edib ki, o, hər zaman öz əqidəsinə sadiqliyi ilə seçilib. Hələ 29 yaşında Bakı Dövlət Universitetinin beynəlxalq hüquq kafedrasını yaradıb və ona rəhbərlik edib. Həmin kafedra bu gün də onun qoyduğu ənənələri davam etdirir və zənginləşdirir.

Akademik bildirib ki, 1993-1996-cı illərdə Bakı Dövlət Universitetinin rektoru olmuş Murtuz Ələsgərov bu təhsil ocağının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində mühüm islahatların əsasını qoyub. Eyni zamanda, həmin dövrdə cərəyan edən mühüm ictimai-siyasi proseslərdə də yaxından iştirak edib.

Böyük alim və istedadlı pedaqoq, görkəmli ictimai-siyasi xadim Murtuz Ələsgərovun şərəfli ömür yaşadığını vurğulayan Milli Məclisin sədri Oqtay Əsədov deyib ki, bütün həyat və fəaliyyətini hüquq elminin inkişafına, gənc nəslin təlim-tərbiyəsinə, müstəqil dövlətimizin qurulmasına, möhkəmlənməsinə və inkişafına həsr edən bu böyük insan Azərbaycanın elm və ictimai-siyasi tarixində silinməz izlər qoyub.

Azərbaycanda beynəlxalq hüquq nəzəriyyəsinin və məktəbinin yaradıcılarından biri olan Murtuz Ələsgərov beynəlxalq hüquq sahəsində doktorluq dissertasiyası müdafiə etmiş və professor elmi adına layiq görülmüş ilk azərbaycanlı idi.

Murtuz Ələsgərovun xidmətləri dövlətimiz tərəfindən də yüksək qiymətləndirilib. Ulu öndər Heydər Əliyevin Fərmanı ilə o, "İstiqlal" ordeninə layiq görülüb. Prezident İlham Əliyevin Sərəncamına əsasən, Murtuz Ələsgərov Azərbaycanda hüquq elminin və təhsilinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu ilə təltif edilib.

Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini - icra katibi Əli Əhmədov görkəmli dövlət xadimi Murtuz Ələsgərovun böyük və şərəfli ömür yolu keçdiyini qeyd edib, onun Azərbaycan xalqının görkəmli ziyalılarının parlaq nümunəsi olduğunu bildirib. Baş nazirin müavini deyib: "O, Azərbaycan ziyalısına malik keyfiyyətləri özündə birləşdirərək, ölkəmizin dövlət müstəqilliyi ideyaları uğrunda daim mübarizə aparıb, müstəqil dövlətçiliyimizin hüquqi əsaslarının yaradılmasında yaxından iştirak edib. Onun bir alim, ziyalı kimi malik olduğu nüfuz xalq hərəkatının ictimai statusunun yüksəlməsində mühüm rol oynayıb".

Murtuz Ələsgərovun 90 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda iştirakından məmnunluğunu ifadə edən Rusiya Federasiyasının Əməkdar hüquqşünası, professor Revol Valeyev isə Azərbaycanın görkəmli dövlət xadimi ilə bağlı xatirələrindən danışıb. Murtuz Ələsgərovun hüquq sahəsində zəngin biliklərə malik olduğunu söyləyən Revol Valeyev onunla beynəlxalq hüquq sahəsindəki fərqli problemləri müzakirə etdiklərini deyib.

Moskva Dövlət Universitetindən gələn qonaqlar adından çıxış edən universitetin prorektoru, professor İqor Kotlobovski Murtuz Ələsgərovun elmi fəaliyyətinə geniş nəzər salıb. Qeyd edib ki, həyatının böyük bir hissəsi Bakı Dövlət Universitetinə bağlı olan Murtuz Ələsgərov yüksək ixtisaslı kadrların hazırlanmasına hər zaman xüsusi diqqət yetirib.

Bildirilib ki, Murtuz Ələsgərov Azərbaycan və Rusiya parlamentləri arasında əməkdaşlığın genişləndirilməsində də yaxından iştirakına, ölkələrimiz arasında dostluğun və əməkdaşlığın möhkəmlənməsi sahəsindəki xidmətlərinə görə Rusiya Federasiyasının "Dostluq" ordeni ilə təltif olunub.

Konfransda, həmçinin Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Ukraynalı professor Leonid Timçenko, Gürcüstan Elmlər akademiyasının həqiqi üzvü, akademik Levan Aleksidze də M.Ələsgərovla bağlı xatirələrini bölüşüb.

Murtuz Ələsgərov adına adlı təqaüdçü, hüquq fakültəsinin 4-cü kurs tələbəsi Əkbər Əliyev belə bir görkəmli şəxsiyyətin adını daşıyan təqaüdə layiq görülməsindən qürur hissi duyduğunu ifadə edib.

Konfrans işini bölmə iclasları ilə davam etdirib.



# AXC dövründə ölkənin sosial-iqtisadi vəziyyəti



Cümhuriyyət hökuməti ictimai-siyasi həyatın digər sahələrində olduğu kimi, müstəqil iqtisadiyyat quruculuğu və sosial sahədə də mühüm tədbirlər həyata keçirirdi. İstiqlalın görkəmli öndərləri olan M.Ə.Rəsulzadə, F.Xoyski, Ə.Topçubaşov və başqalarının sosial-iqtisadi baxışlarında elə bir demokratik cəmiyyətin qurulması nəzərdə tutulurdu ki, orada vətəndaşlar arasında siyasi bərabərliyin bərqərar edilməsi ilə yanaşı, sosial ədalətsizlik də aradan götürülsün. "Fikri, milli və siyasi istiqlalların kökü iqtisadi istiqlaldır" (M.Ə.Rəsulzadə) konsepsiyası Azərbaycan Xalq Cümhuriyyətinin bütün fəaliyyəti dövründə daim diqqət mərkəzində saxlanılırdı.

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi platformasında mülkiyyət plüralizmi-dövlət mülkiyyəti, xüsusi, şəxsi, səhmdar, bələdiyyə mülkiyyəti və digər mülkiyyət formalarının inkişafı üçün bərabər imkanlar yaradılması nəzərdə tutulurdu.

Bolşevizmdən fərqli olaraq, Cümhuriyyət liderləri fabrik, zavod, torpaq və digər əsas istehsal vasitələri üzərində xüsusi mülkiyyəti rədd etmirdilər. Əksinə, hesab edirdilər ki, "bu cür mülkiyyəti tamamilə aradan qaldırmaq indiki vəziyyətdə insanların şəxsi təşəbbüs qüvvətini zorakı olaraq aradan götürür".

Eyni zamanda, xüsusi mülkiyyətin miqyası müəyyənləşdirilir, bu işdə ifrata varmağın zərərli olduğu göstərilirdi. Qeyri-məhdud mülkiyyət hüququ və mənimsəmədə ifratçılıq xüsusi mülkiyyətin yoxluğu qədər zərərli sayılırdı.

"Hər bir əkinçi özünün əkib-biçə biləcəyi miqdarda torpağa sahiblik etməlidir!" prinsipini əsas götürən Azərbaycan islahatçıları geniş torpaqları ölü halında buraxan torpaq sahiblərinin mülkiyyət haqqını rədd edirdilər. Bu cür torpaq sahələri əvvəlki sahiblərindən alınıb, ikinci vətəndaşlar arasında yenidən bölüşdürülməli idi.

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi siyasətində nəzərdə tutulurdu ki, xüsusi mülkiyyətin mövcudluğu mülkiyyətin tamamilə xırdalanmasına aparmamalıdır. Xüsusən də, fabrik və zavodların xırdalanması yolverilməz hesab edilirdi.

Respublikanın iqtisadi qanunvericiliyinə görə, dövlət mülkiyyətinə, qismən də bələdiyyə mülkiyyətinə "dövlətin sərvət və gəlir qaynağını təşkil edən yeraltı mədənlər", həmçinin "dəmir yolu, işıq, su, teleqraf və sair bu kimi ümumi işlərə xidmət edən quruluşlar" daxil edilirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin aqrar proqramının əsasını aqrar islahatı haqqında Parlamentə təqdim olunmuş "Müsavat" fraksiyasının və əkinçilik nazirliyinin mövqeyini əks etdirən qanun layihələri təşkil edirdi.

Göstərilən qanun layihələrinin hər ikisinin məqsədi, müəyyən fərqlərinə baxmayaraq, torpaqsız və aztorpaqlı əhalini torpaqla təmin etmək idi.

Həm də xüsusi torpaq mülkiyyətini ləğv etmək deyil, torpağı xüsusi mülkiyyətlə elə istehlak normaları üzrə vermək nəzərdə tutulurdu ki, bir tərəfdən kənd əhalisini gəlirlərlə təmin etmək mümkün olsun, digər tərəfdən istifadəsiz xüsusi sahibkar torpaqları qalmasın.

Mövcud olduğu 23 ay ərzində Cümhuriyyət hökuməti bir sıra cari təsərrüfat məsələlərinin həllində mühüm uğurlar qazanmışdı. Neft sənayesi ağır vəziyyətdən çıxarılmış, dağıdılmış Bakı-Batum neft kəməri bərpa olunmuş, Bakı-Culfa dəmir yolunun inşası davam etdirilmiş, Kür çayı üzərində körpü salınmış, Azərbaycan dövlət Bankı yaradılmış, milli pul nişanları buraxılmış, Xəzər dəniz gəmiçiliyi inkişaf etdirilmişdi.

# Dünya birjalarında neftin qiyməti bahalaşır

AZƏRTAC xəbər verir ki, Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barrelinin qiyməti 0,09 dollar artaraq 85,07 dollar, Nyu-Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barrelinin qiyməti isə 0,31 dollar bahalaşaraq 75,61 dollar olub.

Azərbaycan neftinin qiyməti son 4 ilin maksimumuna yüksəlib.

"Azeri Light" markalı neftin bir barrelinin qiyməti 1,16 dollar bahalaşaraq 85,94 dollar təşkil edib. Azərbaycan neftinin bir barreli sonuncu dəfə 2014-cü ilin noyabrında 85 dollardan baha satılıb.

Qeyd edək ki, "Azeri Light"ın bir barrelinin qiyməti 2001-ci ilin dekabrında minimuma enərək 19,15 dollar, 2008-ci ilin iyulunda isə maksimuma çataraq 149,66 dollar olub.

"Brent" markalı neftin bir barrelinin qiyməti son 4 ilin maksimumuna çatıb.

"Qara qızıl"ın qiyməti Çin şirkətlərinin ABŞ-ın İrana qarşı tətbiq edəcəyi sanksiyaların iştirakçısı olacağı ilə bağlı çıxan xəbərlər fonunda yüksəlir.

Londonun ICE birjasında "Brent" markalı neftin bir barrelinin qiyməti 85,18 dollaradək bahalaşaraq, 2004-cü ilin noyabrından etibarən ən yüksək səviyyəyə çatıb. "Brent" qiyməti əvvəlki həftə ilə müqayisədə 3 faiz bahalaşıb və maksimum səviyyəyə, yəni 85,41 dollar/barrelədək artıb.

"Light" markalı neftin bir barrelinin qiyməti isə Nyu-Yorkun NYMEX birjasında 3,2 faiz artaraq 75,65 dollara çatıb və son 4 ildə ən yüksək səviyyəyə yüksəlib.

Xam neftin qiymətindəki sıçrayışda Çinin neft-qaz nəhəngi "Sinopec" şirkətinin, eləcə də "China Petroleum" and Chemical Corporation"un İrandan aldıqları neftin həcmini iki dəfə azaldacaqlarına dair qərarları əsas rol oynayıb.

Analitiklərin fikrincə, bazar bu qərarı dünyanın ən böyük neft istehlakçılarından biri olan Çinin ABŞ-ın İrana qarşı sanksiyalarına riayət edəcəyi kimi qiymətləndirib.

Bundan əlavə, ABŞ-Kanada-Meksikanın yeni ticarət razılaşmasının rəsmi Vaşinqtonun poladın qiymətinə tətbiq etdiyi vergiyə təsirsiz olduğu bildirilir.

"Bank of America"nın analizinə əsasən, Kanada və Meksikadan idxal olunan polada 25 faiz vergi tətbiq edilməsi ABŞ neft istehsalı və ixracında əsas regionlardan olan Permian hövzəsində yeni boru kəməri təchizatına mənfi təsir göstərəcək.

Qeyd edək ki, hazırda "Brent" markalı neftin bir barreli Londonun ICE birjasında 85,11 dollara, "Light" neftinin bir barreli isə Nyu-Yorkun NYMEX birjasında 75,68 dollara alıcı axtarır.



# "Şərq tərəfdaşlığı" çərçivəsində ölkəmizi daha yaxından tanıtdıraq

*4-6 sentyabr 2018-ci il tarixlərində Polşada "Polşa 28" İqtisadi Forumu keçirilmişdir. Proqramına 6 plenar iclas və 100-dən yuxarı panel-diskussiya daxil edilmiş tədbir Polşanın Krakov - Krıniça-Zdruy şəhərində təşkil olunub. 30-dan çox ölkədən 4 mindən yuxarı iştirakçının qatıldığı Forumda Avropanın "Şərq tərəfdaşlığı" proqramına daxil olan ölkələrdə iqtisadi durum və əməkdaşlıq, böhran, azad iqtisadi zonalar, demokratiyanın vəziyyəti, iqtisadi inteqrasiya, enerji təhlükəsizliyi, cəmiyyət arasında kommunikasiya və s. kimi mövzular müzakirə edilib. Təşkilat Komitəsinin dəvəti ilə UNEC-in Elm şöbəsinin müdiri, professor Zahid Məmmədov da Forumda "Şərqi tərəfdaşlıq proqramı böhrandamı? Avropa birliyi bu ölkələrə nə təklif edə bilər?" adlı məruzə ilə çıxış edib. Bu barədə daha ətraflı məlumat əldə etmək üçün professor Z.Məmmədovla olan müsahibəmizi sizlərə təqdim edirik.*

**- Zahid müəllim, bu proqram və onun Azərbaycan üçün nəzərdə tutulan əsas xüsusiyyətləri barədə bir qədər məlumat verərdiniz.**

- Avropa İttifaqının əsas dəyərləri insanın şərəf və ləyaqətinə hörmət, insan hüquqları, azadlıq, demokratiya, bərabərlik və qanunun aliliyinə hörmətdir. Məhz bu dəyərlər üzərində qurulan "Şərq tərəfdaşlığı" proqramı da üzv dövlətləri birləşdirir və bu dəyərləri tanımayan ölkə bu birliyə daxil ola bilməz. Azərbaycanda isə "Şərq tərəfdaşlığı"nın, əsas olaraq, dörd platforma çərçivəsində fəaliyyətinə diqqət çəkilir. Bunlar:
-demokratiya və insan hüquqları;
- iqtisadi inteqrasiya, iqtisadi islahatların aparılması;
- enerji təhlükəsizliyi;
- insanlar və cəmiyyət arasında münasibətlərdir.

**- "Şərq tərəfdaşlığı" proqramına daxil olan ölkə kimi, Azərbaycanla bağlı digər tərəfdaş ölkələri maraqlandıran əsas məsələlər nə idi?**

- Azərbaycanla bağlı orada mənə əsas olaraq, polyaklar sual verdilər ki, niyə Azərbaycan Dünya Ticarət Təşkilatına daxil deyil? Halbuki, Ukrayna, Moldova və Gürcüstan bura daxildir. Mən isə onlara cavab olaraq bildirdim ki, Azərbaycan sürətlə inkişaf edən ölkədir, burada yeni iqtisadi islahatlar aparılır. Mən xüsusilə qeyd etdim ki, bu gün Polşanın özündə belə hər kəsin ən böyük arzusu onların milli brendlərinin, istehsal nümunələrinin tanınmasıdır. Azərbaycan isə 25 ildir iqtisadiyyatını sıfırdan qurur, həmçinin Azərbaycan məhsullarının brendləşməsi üzərində işləyir. Bu gün "Made in Azerbaijan" brendi altında güclü iqtisadiyyat qururuq. Düzdür, bizi Dünya Ticarət Təşkilatına dəvət edirlər. Buna baxmayaraq, ölkəmiz güclü milli iqtisadiyyatını qurmaq konsepsiyası istiqamətində irəliləyir. Cənab Prezident İlham Əliyev də qeyd edir ki, bizi DTT-yə dəvət edirlər, ancaq biz öz milli iqtisadiyyatımızı gücləndirməliyik. Bu gün biz onların qarşısına gücsüz çıxa bilmərik. Azərbaycan Respublikasında həyata keçirilən Strateji Yol Xəritəsi çərçivəsində milli brendlərimiz yaranır və biz dünya bazarına milli brendlərlə daxil ola bilirik. Bu gün deyəcək çox sözümüz var. Azərbaycan dövləti olaraq, Riqada, Moskvada, Minskdə, Sankt-Peterburqda, Uralda ticarət evləri aça biliriksə, deməli, ölkəmizin güclü iqtisadiyyatından da danışa bilərik.




Forum iştirakçılarını maraqlandıran digər bir məsələ isə işlə təminatla bağlı idi. Orada Moldovadan, Ukraynadan gənclər iştirak edirdilər və sual verdilər ki, biz Harvardda yüksək təhsil almışıq, lakin işlə təminatda problemlər yaşayırıq. Mən isə bildirdim ki, bizim ölkədə bu cür problemlər yaşanmır, bununla bağlı dövlət proqramları mövcuddur. Qabiliyyətli, bilikli insanların işlə təminatı problemi uğurla həll olunur. UNEC rəhbərliyindən aldığım təminata əsasən qeyd etdim ki, pedaqoji fəaliyyətlə məşğul olmaq istəyənlər bizim universitetə müraciət edə bilərlər, çünki bizim universitetdə qabiliyyətli gənclərə iş sahəsində geniş meydan var.

**- "Şərq tərəfdaşlığı" proqramı, adından da göründüyü kimi, tərəfdaşlıq üzərində qurulmuşdur. Lakin burada Ermənistanın iştirakı və Azərbaycana qarşı təcavüzü məsələsi proqramın məqsədlərindən bir qədər kənara çıxır. Bununla bağlı sizin münasibətinizi bilmək istərdik?**

-Bəli, Ermənistan "Şərq tərəfdaşlığı" proqramının üzvü olmasına baxmayaraq, işğalçı dövlətdir, Azərbaycanın ərazi bütövlüyünü pozmuşdur. Biz düşünürük ki, Avropa Birliyi artıq buna öz sərt münasibətini bildirməlidir. Çünki belə ikili standart davam edə bilməz. Avropanın uzunmüddətli susqunluğunun nəticəsi olaraq, dünyanın bəzi regionlarında qeyri-sabitlik hökm sürür. Əgər vaxtında Ermənistana qarşı tədbir görülsə idi, bu gün bəlkə də dünyada İŞĞALÇI SİYASƏT yaşanmazdı. Biz hesab edirik ki, Avropa Birliyi artıq, birmənalı olaraq, bu məsələyə öz münasibətini bildirməlidir. Çünki Azərbaycan artıq Avropanın enerji təhlükəsizliyində də yaxından iştirak edir və onun ən yaxın partnyorudur. Borc alan ölkə deyil, borc verən ölkədir. Hazırda Azərbaycanla iri infrastruktur layihələri həyata keçirilir.

Ümumiyyətlə, Azərbaycanı artıq çox yaxından tanıyırlar. Ölkəmizin müxtəlif iqtisadi, idman forumlarına ev sahibliyi etməsi dünya ictimaiyyəti tərəfindən tanınmasına da müsbət təsir göstərir. Ermənistana gəlincə isə, onların qeyd edəcək heç bir göstəricisi yoxdur. Onlar dünya ictimaiyyəti qarşısında danışa bilmirlər. Azərbaycanın apardığı güclü siyasət isə Ermənistanın işğalçı siyasətini ifşa etməyə imkan verir.

Bu gün Azərbaycandan istənilən ölkəyə rahat getmək və eynilə başqa ölkələrdən də turistlərin ölkəmizə rahat şəkildə gəlmək imkanı var. Bu cür tədbirlər Azərbaycan iqtisadiyyatını yaxından tanıtdırmağa imkan verir.

- Forum çərçivəsində hansı müsbət nəticələr əldə olundu?

- Forum çərçivəsində çox müsbət nəticələr qazanıldı. Bunlardan biri "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində dərsliklərin hazırlanması məsələsidir. Çünki bu sahədə hər hansı ədəbiyyat yoxdur. Bununla bağlı oktyabrda gələcək nümayəndə heyəti ilə də danışıqlar aparılacaq. Yeri gəlmişkən, bildirim ki, oktyabr ayında "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində böyük bir nümayəndə heyəti ali hakimiyyət orqanları ilə görüşmək məqsədilə ölkəmizə gələcək. Biz də UNEC olaraq bu sahədə akademik mərkəzlərin yaradılması üçün müzakirələr aparacağıq.

Ümumiyyətlə, "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində biz ölkəmizi də yaxından tanıtdıra bilərik. Xüsusilə, ölkəmizin tolerantlığı, digər ölkələrlə mehriban dostluq münasibətləri qurması və münaqişələrdən uzaq olması onun əsas üstünlüklərindəndir.

Həmçinin, UNEC-in dekabr ayında I İqtisadi Forumu keçiriləcəkdir. Bu isə regionda iqtisadi sahədə həyata keçiriləcək ən ciddi tədbirlərdən biri olacaqdır.

***- Çox sağ olun, Zahid müəllim.***

**Müsahibəni aldı:**
**Mətanət Hüseynova**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**

# QIZIL PAYIZ ADDIMLAYIR

Son illər Azərbaycanda köklü islahatlarla müşayiət olunan iqtisadi siyasətin üstün mövqeyə çıxarılan istiqamətləri sırasında qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın diversifikasiya proseslərinin dərinləşdirilməsi mühüm yer tutur. Bu hədəflərə çatmaq üçün ölkədə iqtisadiyyatın qanunvericilik bazası təkmilləşdirilir, sahibkarlıq subyektlərinə hərtərəfli kömək və yardımlar göstərilir, güzəştli kreditlər verilir.

Sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, əlverişli biznes mühitinin yaradılmasına dövlət tərəfindən göstərilən qayğı və diqqət, mövcud olan maneə və əngəllərin aradan qaldırılması, müəyyən sahələrdə lisenziyaların ləğvi və ya onların verilmə prosedurlarının sadələşdirilməsi iqtisadi irəliləyişə geniş imkanlar açmışdır. Qeyri-neft sektorunda baş verən inkişaf tempi məhz bu amillərlə bağlıdır. Statistik rəqəmlərə müraciət etsək görərik ki, təkcə cari ilin birinci yarısında ölkə üzrə ümumi daxili məhsul 1,3 faiz, qeyri-neft sektoru 2 faiz artıb. İqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülən tədbirlər nəticəsində qeyri-neft sənayesində 8,8 faiz, kənd təsərrüfatında 7,6 faiz, informasiya və rabitə xidmətlərində 4,9 faiz, ticarətdə 2,5 faiz artım əldə olunub. Sözsüz ki, altı ay ərzində bu qədər uğurların qazanılması elə-belə baş verməyib. Bunlar görülən işlərin, həyata keçirilən sistemli və ardıcıl tədbirlərin real təcəssümüdür.

Qeyri-neft sektorunun strukturunda kənd təsərrüfatı xüsusi çəkiyə malikdir. Bütün dönəmlərdə Azərbaycanda bu sahə üstün mövqe kəsb edib. Sovetlər dönəmində, xüsusilə də ötən əsrin 70-ci illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə kənd təsərrüfatında məhsul istehsalı, o cümlədən pambıq, üzüm və tərəvəz bitkiləri istehsalında yüksək göstəricilərə nail olunub, ittifaq respublikaları arasında Azərbaycan həmişə birinciliyi qoruyub saxlayıb. İttifaq çökdükdən sonra bütün digər sahələr kimi, respublikanın kənd təsərrüfatında da ciddi tənəzzül, acınacaqlı böhran yaşanıb.

Məhsul istehsalının həcmi o qədər azalıb ki, heç onları rəqəmlərlə ifadə etməyə də adamın dili gəlmir. O vaxtlar ixracdan danışmaq isə tamamilə yersizdir. 1997-ci ildən başlayaraq ulu öndər Heydər Əliyevin başladığı və uğurla gerçəkləşdirdiyi aqrar islahatlar sayəsində Azərbaycanın kənd təsərrüfatı məhv olunmaqdan qurtuldu. Cənab Prezident İlham Əliyevin 14 il ərzində həyata keçirdiyi uğurlu iqtisadi siyasət nəticəsində respublikanın kənd təsərrüfatında inanılmaz inkişaf və təbəddülat baş verdi. Son 2-3 ildə kənd təsərrüfatı məhsulları istehsalı faizlə deyil, dəfələrlə artıb. Belə artım tempi pambıqçılıqda, fındıqçılıqda, baramaçılıqda, tütünçülükdə, xurma və nar meyvəsi tədarükündə daha çox özünü göstərib. Cənab Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında kənd təsərrüfatının inkişafından danışarkən demişdir: "Kənd təsərrüfatı ilə bağlı qarşıda duran əsas vəzifələr bu sahədə ən müasir standartlar tətbiq etməkdir. Son illərdə kənd təsərrüfatının inkişafına böyük diqqət göstərilmişdir. Demək olar ki, biz texnika parkımızı yeniləmişik. Kənd təsərrüfatı texnikasının alınması bundan sonra da davam edəcək, ancaq əsas hissəsi həll olunub... Biz həm aqrotexniki tədbirlərlə bağlı texnologiyaları, həm də su ilə bağlı texnologiyaları Azərbaycana gətirməliyik. Elə müasir sistemlər var ki, hər bir qarış torpaqdan maksimum səmərə ilə istifadə olunur. Bax, bu texnologiyaları biz Azərbaycana gətirməliyik və elektron kənd təsərrüfatı sistemini, nəhayət ki, tətbiq etməliyik".



Əslində, bu bir-iki cümlə ilə, çox lakonik şəkildə ölkə başçısı aqrar sahənin uzunmüddətli strateji hədəflərini müəyyən etmişdir. Cənab prezident onu demək istəmişdir ki, yaxın vaxtlarda əkin və suvarma texnologiyasının başdan-başa modernləşdirilməsi problemi öz həllini tapmalıdır. Bu da sirr deyildir ki, öhdəsində az torpaq sahəsi olan təsərrüfat adamı öz əkin sahəsini əkib-becərmək üçün bahalı texnika və texnologiyalar tətbiq edə bilməz. Məhz buna görə də aqrar sahədə yeni münasibətlər formalaşmalıdır. Bu məsələləri yüksək şəkildə yoluna qoymaqda yeni yaradılan qurum olan aqroparklar müstəsna rola malikdirlər. Dövlət aqropark infrastrukturunun yaradılması üçün 200 milyon manatdan çox investisiya qoyub, sahibkarlıq subyektlərinə 100 milyon manatdan artıq güzəştli kredit verib. Respublika üzrə 45 aqropark komplekslərinin yaradılması nəzərdə tutulur ki, onların bir neçəsi artıq fəaliyyət göstərir və müsbət nəticələr əldə olunub. Bu məqaləni hazırlayarkən Şəmkir aqroparkında olduq və orada yaradılan müasir və unikal infrastrukturu gözlərimizlə gördük. Belə möhtəşəmlikdə kompleks cənubi Qafqaz regionunda yoxdur. Bunu ancaq inkişaf etmiş ölkələrdə görmək olar.

Aqroparkların yaradılmasına, ümumilikdə, 1,5 milyard sərmayənin qoyulması nəzərdə tutulur. Burada əsas məqsədlərdən biri də yüksək məhsuldarlığa nail olmaq, fermer təsərrüfatlarının gəlirlə işləməsini təmin etməkdən ibarətdir. Bir fakta nəzər yetirək. Taxıl istehsalı üzrə respublikada ümumi göstərici hər hektara 30 sentner olduğu halda, aqroparklarda bu rəqəm 50 sentner təşkil edir. Yaranan fərqi görürsünüzmü? Hər hektardan 20 sentner artıq məhsul. Bu birbaşa sahibkarın qazancı, gəliri deməkdir. Bu, eyni zamanda, yeni texnika və texnologiyaların üstünlüklərini əyani şəkildə ortaya qoyur. Nəticədə isə, ölkəmizdə ərzaq təhlükəsizliyinin etibarlı şəkildə təmin olunması deməkdir. Çünki taxıl dövlətin ərzaq təhlükəsizliyi sistemində birinci yerdə dayanır.

Hazırda ölkə üzrə 4 aqropark fəaliyyət göstərir. Cari ilin sonunadək 14 yeni aqropark istifadəyə veriləcək. Fəaliyyət göstərən aqropark və iri fermer təsərrüfatlarında 50 min hektardan artıq ərazidə müasir suvarma sistemlərinin tətbiqi nəticəsində buğda, arpa, dənli qarğıdalı və digər kənd təsərrüfatı bitkiləri üzrə hər hektardan əldə olunan məhsuldarlıq respublika üzrə orta məhsuldarlığa nisbətən təxminən 2 dəfə çoxdur. Yuxarıda da qeyd edildiyi kimi, aqropark şəbəkəsi ilbəil genişləndirilir, 45 aqroparkın yaradılması ilə, demək olar ki, respublikanın bütün bölgələri əhatə olunacaq. Bu isə kənd təsərrüfatında məhsul istehsalının həcminin artırılmasında, onun keyfiyyətinin yüksəldilməsində və nəhayət, ixrac potensialının artırılmasında müstəsna rol oynayacaq. Bununla da ölkənin kənd təsərrüfatında keyfiyyətcə yeni inkişaf və yüksəliş mərhələsi başlanacaq. Bu, Azərbaycan brendi altında məhsulların ixrac olunaraq geniş arealda yayılmasına, sağlam rəqabət mühitinin formalaşmasına, gəlirlərin əhəmiyyətli dərəcədə artmasına, işsizliyin aradan qaldırılmasına, insanların sosial vəziyyətinin yaxşılaşdırılmasına uzunmüddətli təminat yaradacaq. Yuxarıda göstərilən rəqəmlər də bunu sübut edir.

Bu gün Azərbaycan dövlətinin diqqətdə saxladığı vacib məsələlərdən biri də kiçik sahibkarlıq subyektlərinə, ailə-fermer təsərrüfatlarına hərtərəfli kömək və yardımların göstərilməsidir. Bu kömək müxtəlif yollar və vasitələrlə həyata keçirilir. Dövlət başçısı dəfələrlə vurğulamışdır ki, bu işdə iri fermer təsərrüfatları xüsusi fəallıq göstərməli, təşəbbüs ortaya qoymalıdırlar. Bu məqsədlə iri sahibkarlıq subyektləri tərəfindən kiçik sahibkarlıq subyektlərinin dəstəklənməsi üçün şəkər tozu istehsalının yerli xammal hesabına artırılması məqsədilə illik 3 faiz olmaqla 7 min hektar sahədə şəkər çuğunduru əkininə 7 milyon manat güzəştli kredit ayrılıb. Bunun üçün 1500 fermerlə müqavilə bağlanıb ki, həmin müqavilələr əsasında 3500 nəfər işlə təmin olunub.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-iyul aylarında kənd təsərrüfatında ümumi məhsulun faktiki qiymətlərlə dəyəri 4100.2 milyon manat təşkil etmişdi ki, bunun da 2086 milyon manatı heyvandarlıq, 2014.2 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür. Ötən ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsulları istehsalı 6,5 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 2,5 faiz, bitkiçilik məhsulları üzrə isə 11 faiz artım əldə olunub. Bu artım məhsul ixracında da özünü göstərib. Bu ilin 7 ayı ərzində 144 milyon dollar dəyərində pomidor məhsulu ixrac olunub.

İxracda pomidor birinci yerdə dayanır. Həmin dövrdə meyvə-tərəvəz ixracı 30,1 milyon dollar, pambıq lifi 45 milyon dollar, pambıq ipliyi ixracı 12 milyon dollar təşkil etmişdir. Pambıq ipliyi ixracı 32 faiz, meyvə-tərəvəz ixracı 18 faiz artıb. Yüksək ixrac imkanları olan pambıq, üzüm, fındıq, xurma, nar və digər məhsullar payızda yetişir. İxracın tam mənzərəsi həmin məhsulların tədarükündən sonra görünəcək. Bağlarda, plantasiyalarda, tarlalarda bol məhsul nəzərə çarpır. Qızıl payız iri addımlarla irəliləyir. Özü ilə məmləkətimizə bolluq, bərəkət və qələbəlik gətirir...

**Zülfü İLYASOV,**
**bölgə müxbiri**

# В Баку состоялась официальная церемония открытия IX Азербайджано-российского межрегионального форума





27 сентября в Центре Гейдара Алиева состоялась официальная церемония открытия IX Азербайджано-российского межрегионального форума. Как сообщает АЗЕРТАДЖ, Президент Азербайджанской Республики Ильхам Алиев и Президент Российской Федерации Владимир Путин приняли участие в церемонии. Президент Ильхам Алиев сказал: "Сегодняшнее участие президентов России и Азербайджана в работе Межрегионального форума – свидетельство того, какое большое значение мы придаем деятельности этого форума. Это – девятый форум, в следующем году будет юбилейный. Мы рады, что первый форум в 2010 году был проведен в Азербайджане и тем самым был дан толчок очень активному межрегиональному сотрудничеству. И то, как заполнен сегодня этот зал, вмещающий 1000 человек, говорит о том, какой большой интерес существует к работе этого форума. С Владимир Владимировичем мы встречаемся регулярно. Не так давно, в начале сентября, я совершил официальный визит в Российскую Федерацию. Мы провели очень плодотворные переговоры, очень обстоятельный обмен мнениями по всем вопросам повестки дня. И то, что меньше чем через месяц Президент России находится в Азербайджане, – яркое свидетельство того уровня отношений, которые между нами существуют.

В рамках моего визита было подписано 16 документов, которые охватывают многие сферы деятельности и которые будут предопределять на многие годы вперед поступательное развитие наших отношений.

Также должен отметить, что Президент Российской Федерации Владимир Владимирович Путин за последние 5 лет в четвертый раз посещает Азербайджан. Я также регулярно совершаю визиты в Россию, и это также является ярким свидетельством нашего партнерства, дружественных и добрососедских отношений между нашими странами.

Что касается торгово-экономических связей, то мы видим динамику роста, она очень впечатляет. Это поступательная динамика: и в прошлом году, и в этом году товарооборот растет.

Россия для Азербайджана является партнером номер один по импорту и партнером номер один по экспорту наших товаров ненефтяной сферы. Также осуществляются проекты, связанные с взаимными инвестициями, и здесь тоже мы видим позитивную динамику.

Очень прочные связи в энергетической и нефтегазовой сфере. Мы в рамках моего официального визита в Российскую Федерацию подписали важный документ – договор между компаниями «Роснефть» и SOCAR по сотрудничеству в нефтяной сфере. Также в Азербайджане более 20 лет успешно работает и является важным инвестором для нас компания «ЛУКОЙЛ».

В сфере электроэнергетики наши энергосистемы работают в параллельном режиме. Мы обсуждали в рамках моего сентябрьского визита вопросы, связанные со строительством второй очереди высоковольтной линии электропередачи, которая позволила бы еще больше наладить энергообмен, а также расширить сотрудничество с третьими странами в этой сфере.

Мы очень активно сотрудничаем в транспортной сфере. Проект «Север-Юг», который мы совместно реализовываем, уже приносит свои результаты. В этом году по сравнению с прошлым годом мы видим более чем 100-кратное увеличение транспортировки грузов по этому коридору, и это только начало.

Мы рассчитываем, что этот коридор станет одной из важнейших транспортных артерий Евразии и тем самым еще больше будет способствовать сближению между нашими странами и увеличивать наш транзитный потенциал.

Также хотел бы отметить, что только Азербайджанская национальная авиакомпания совершает более 50 рейсов в неделю в различные города России. Если добавить еще и российских авиаперевозчиков, мы увидим также интенсивность того, как общаются между собой наши граждане и интенсивность наших связей.

В туристической сфере мы видим очень значительный рост посещения Азербайджана со стороны граждан России. За неполные 9 месяцев около 700 тысяч россиян посетили Азербайджан. Уверен, что эта цифра также в будущем будет расти.

В банковской сферы очень хорошие перспективы и сотрудничество. В Азербайджане действует такой крупный российский банк, как ВТБ. Кстати, Азербайджан является крупнейшим иностранным акционером этого банка. Также «Газпромбанк» профинансировал относительно недавно крупнейший промышленный проект Азербайджана стоимостью более 400 миллионов долларов. То есть, это все важные элементы нашего сотрудничества.

Относительно новой сферой сотрудничества является автомобилестроение. В Азербайджане уже выпускаются автомобили «КамАЗ», «Урал». Уже сотни этих автомобилей сошли с конвейера. А также достигнута договоренность о производстве автомобилей «ГАЗ» тоже в нашей стране. По всем направлениям мы видим очень эффективную динамику и все это подчеркивает и дух, и характер наших отношений.

Конечно же, в основе наших отношений лежат наши исторические связи, культурные связи, близость наших народов, и конечно мы совместно очень активно работаем над развитием гуманитарных связей.

В следующем месяце в Баку будет проходить очередной Бакинский гуманитарный форум под патронатом президентов России и Азербайджана. Этот международный форум уже превратился в важнейшую глобальную площадку для обсуждения вопросов гуманитарного характера, межкультурного диалога, межконфессиональных отношений.

В Азербайджане действует 341 школа с обучением на русском языке, действуют 2 филиала ведущих российских вузов – МГУ и Медицинской университет имени Сеченова. В культурной сфере также очень активно взаимодействуем. Здесь можно очень много говорить о российско-азербайджанских отношениях, просто из-за того, что мы имеем формат сегодняшнего форума невозможно охватить все. Но мы нацелены на дальнейшее активное развитие отношений. Также думаю немаловажным шагом в деле дальнейшего нашего сотрудничества будет и планируемое на следующий год открытие Азербайджанского павильона на ВДНХ. Это историческое здание было азербайджанским павильоном в середине прошлого века и мы восстанавливаем его и будем присутствовать и демонстрировать наше достижение на такой важнейшей, я думаю, международной выставочной площадке. С российскими регионами у нас тоже очень тесные отношения. Около 20 субъектов Российской Федерации с Азербайджаном имеют соответствующие соглашения. Мы открываем торговые представительства в регионах, также российские регионы в Азербайджане. То есть, я уверен, что межрегиональное сотрудничество будет органично дополнять весь комплекс дружественных, добрососедских отношений, которые наши страны связывают.

Хотел бы выразить благодарность Президенту Владимир Владимировичу Путину за то, что он сегодня находится в Азербайджане. Для нас это очень ценно. Мы рассматриваем это как знак дружбы, как знак уважения к нашей стране. И, конечно, то, что мы выступаем перед вами, подчеркивает значимость той работы, которую вы проводите. Я желаю форуму успехов и дальнейших достижений на благо процветания наших стран и народов».

Президент России Владимир Путин, выступая на форуме, в частности, сказал: «IX Межрегиональный форум – это, в общем, говорит о том, что все эти предыдущие годы мы не просто не теряли времени даром, а активно работали, причем по всем направлениям, и это дает свои результаты. Я некоторые вещи повторю, некоторые напомню дополнительно. Во всяком случае вот в этом зале собрались представители и науки, и творческой интеллигенции, и представители бизнеса, и политики, и все это вместе дает хороший результат, «на гора» выдает. Отмечу, что межрегиональные связи являются важнейшей составляющей наших межгосударственных отношений.

С регионами Азербайджана тесно работают порядка 70 регионов Российской Федерации.

Лидерами здесь безусловно являются Москва, Московская область, Санкт-Петербург, но и Ставрополь, Краснодарский край, Астраханская, Нижегородская, Челябинская, Волгоградская, Саратовская, Свердловская области.

В целом, говоря об отношениях между Россией и Азербайджаном, хотел бы подчеркнуть, что отношения между нашими государствами, безусловно, выстраиваются на принципах добрососедства и взаимного уважения. Мы всегда ищем баланс интересов и находим его.

В ходе недавних переговоров в Сочи, о чем Президент Азербайджана только что сказал, мы подписали целый ряд документов, соглашений, которые безусловно создают дополнительную нормативную базу для дальнейшего строительства наших межгосударственных связей.

Отмечу, что на азербайджанском рынке уже сейчас действуют порядка 700 совместных компаний с российским участием, а общий объем прямых российских инвестиций в республику составляет более полутора миллиардов долларов. Большую помощь в налаживании взаимовыгодных бизнес-контактов оказывает и Российско-Азербайджанский деловой совет. Только в прошлом году он поддержал 42 совместных проекта на общую сумму около полумиллиарда долларов.

Успешно работают в Азербайджане российские энергетические корпорации, уже было сказано об этом. Компания «Роснефть» совместно с госкорпорацией Азербайджана в скором времени приступит к разведке и освоению нефтегазового месторождения «Гошадаш».

Около 4 миллиардов долларов инвестировала в энергетические проекты в Азербайджане «ЛУКОЙЛ», о котором здесь тоже было сказано, а «Транснефть» – наша грядущая монополия по транспортировке нефти –, обеспечивает надежный транзит азербайджанской нефти на экспорт по нефтепроводу «Баку-Новороссийск».

Мы видим хорошие возможности для углубления кооперации в автомобилестроении. Тоже об этом уже говорили сегодня. «КамАЗ» начала работу. Там уже осуществляется техническая сборка и обслуживание автомобилей. «АвтоВАЗ» создал во всех регионах Азербайджана широкую розничную сеть по продаже автомобилей «Лада», более 40 отделений создано в республике.

В свою очередь, инвесторы из Азербайджана участвуют в строительстве в России сельхозобъектов. В их числе, например, тепличный комплекс в Нижегородской области (инвестиции составили более миллиарда рублей), а также совместное предприятие по выпуску продуктов питания в Краснодарском крае.

В 2017 году заметно, почти на 12 процентов выросли поставки азербайджанской сельхозпродукции в Россию. Общий объем, на минуточку, – полмиллиарда долларов!

Наши партнеры проявляют повышенный интерес к этой сфере.

Свидетельство тому – участие более 30 азербайджанских компаний в международной продовольственной выставке в Москве в сентябре, как раз 17-20 сентября.

Россия и Азербайджан осуществляют совместные инфраструктурные проекты. В частности, идет создание международного транспортного коридора «Север-Юг» (это Иран, Азербайджан, Россия), который призван сблизить европейские и азиатские рынки.

В рамках этой масштабной, действительно масштабной, большой работы и инициативы строители наших стран возводят новый мост на реке Самур с пропускной способностью более 37 тысяч машин в сутки.

Новые возможности для взаимовыгодной кооперации между нашими государствами открыла и Конвенция о статусе Каспийского региона. Это, безусловно, прорывное решение.

Безусловно, там еще многое нужно сделать для того, чтобы все работало, чтобы добиться полномасштабной имплементации, но уже состоявшееся подписание, состоявшийся документ создает нам хорошую базу для сотрудничества в Каспийском регионе.

Рассчитываем, что российские и азербайджанские компании активно займутся реализацией перспективных проектов в Каспийском регионе, прежде всего, в сфере транспорта, грузоперевозок, добычи нефти, газа, экологии и, безусловно, сохранении биоресурсов и биоразнообразия Каспия.

Интенсивно развиваются двусторонние контакты в области туризма. В Ессентуках, благодаря, кстати, азербайджанским предпринимателям построен санаторно-курортный центр, в Железноводске возводится гостиничный комплекс.

Планируем также совместно развивать морские круизные путешествия по Каспию.

И, конечно, особое значение с российской и с азербайджанской сторон придается расширению гуманитарного сотрудничества. Президент Азербайджана сейчас только что об этом тоже сказал.

В Баку, вот как только что сейчас прозвучало, работают два филиала наших крупнейших вузов – МГУ и Сеченова. Растет число научных и студенческих обменов. Ростовский институт путей сообщения, Астраханский университет разрабатывают совместные с азербайджанскими партнерами программы по подготовке высокопрофессиональных кадров, прежде всего по экономическим специальностям.

Мы, безусловно, намерены и дальше всячески стимулировать, поощрять контакты наших стран в образовании, культуре, науке. Особо отмечу, мы вот и в Сочи с Президентом об этом говорили, мы это видим, и мы высоко это оцениваем, – интерес к русскому языку. И не только интерес у граждан Азербайджана к русскому языку, но и помощь со стороны государства, муниципалитетов, в городах. Мы это все видим.

Вот эти 300 с лишним школ, о которых Президент сказал, – это, конечно, база, но самая главная база в сердцах, в головах людей. Это явное стремление к сотрудничеству, к поддержанию и развитию контактов.

Я затронул лишь некоторые направления взаимодействия наших стран, в которых активно участвуют российские и азербайджанские регионы. Возможности для сотрудничества действительно очень широкие. Причем определяются конкретные направления нашего взаимодействия на региональном уровне прежде всего вы– те, кто собрались в этом зале, и ваши коллеги на местах. И я, безусловно, хочу вам пожелать всяческих успехов в этой работе».

# Şəhərsalmaya həsr olunan ömür



***Yetmiş yaşını yenicə tamamlamış Cahangir Qocayevin həyat hekayəsindən bir parça...***

Dəyərlərin və baxışların dəyişdiyi indiki dövrdə yaxşını pisdən, pisi yaxşıdan seçmək o qədər də asan olmur. Bəzən hər kəsin yaxşı bildiyi, nəinki öz ətrafında, hətta cəmiyyətdə ad-san qazananlar birdən-birə başqalaşır, simasını və ictimai nüfuzunu itirərək unudulur, yaddaşlardan silinir. Və ya əksinə, illər ötdükcə hörmətini artıran, yaşa dolduqca örnəyə çevrilən insanlar başqalarının qəlbində əbədi sevgi qazanır.

Adamlar həm də çalışdığı peşəyə, tutduğu ictimai fəaliyyətə münasibətdə dəyər qazanırlar. Yaxşılar çalışdığı peşəyə də hörmət gətirir, pislər isə illər uzunu qazanılmış və formalaşdırılmış yaxşılıqları nüfuzdan salır. Yaxşı ki, cəmiyyətimizdə mətin keyfiyyətlərin daşıyıcısına çevrilmiş dəyər sahiblərimiz hələ çoxdur. Belə dəyər sahiblərindən biri də şəhərsalmaya sədaqət nümunəsi olan Cahangir Qocayevdir. Bu il 70 yaşını tamamlayan Cahangir Qocayevin uzun illər xidmətində dayandığı şəhərsalma sahəsində ideya və prinsiplərinə sadiq olmaq o qədər də asan deyil. Amma o, şəhərsalmaya dəyər qazandırmağı bacarmış zirvədir. Bu zirvəyə ucalmağı heç də hər memar, mühəndis bacarmır. Cahangir Qocayevin öz peşəsinə bağlılıq prinsiplərində şəhərsalmaya peşəkar yanaşma xətti, dövlətə və dövlətçiliyə misilsiz sadiqlik ruhu var. O, sadiqliyini zəhməkeşliyi, həssas yanaşma tərzi ilə sübut etmiş bir örnək kimi böyük hörmət və ehtiram sahibidir.

Mən onu tanıyanda çox gənc idim, jurnalistikada fəaliyyətə yenicə başlamışdım. Sosial-iqtisadi mövzularda yazan gənc jurnalist kimi şəhərsalma məsələləri daim diqqətimdə idi. Özümdən böyük və təcrübəli həmkarlarımdan şəhərsalma məsələlərindən hansı mütəxəssisin rəyinin vacib olduğunu soruşduqda, hər kəs Cahangir Qocayevin adını birinci sırada çəkirdi... Aradan düz 20 ilə qədər vaxt keçir. Elə o vaxtdan Cahangir Qocayevi öz işinin peşəkarı, şəhərsalma sahəsində öz sözünü demiş mütəxəssis, böyük insani keyfiyyətləri özündə birləşdirən sadəlik, səmimilik və alicənablıq nümunəsi kimi tanıdım.

Kasıb və arxasız kənd uşağı Bakıda necə məşhurlaşdı?

1948-ci ildə Saatlı rayon Mollavayızlı kəndində anadan olub. Tale ona çox sıxıntılar yaşadıb. Uşaqlığı İkinci Dünya müharibəsindən sonrakı çətin illərə təsadüf edib. Hamı kimi Cahangir Qocayevin böyüdüyü ailə də çətinliklə dolanırdı. Ailədə 3 uşaq olublar, fəhlə ata evdar xanımı ilə övladlarına təhsil vermək üçün hər cür çətinliklərə qatlaşıblar. "Orta məktəbi elə öz kəndimizdə oxumuşam. Mollavayızlı kəndindəki məktəb 8 illik olduğundan 9-cu sinifdən kənddən 3 kilometr uzaqda yerləşən qonşu Soltanlı kəndində orta təhsilimi davam etdirmişəm. Qarşıma məqsəd qoymuşdum ki, ali təhsil almalıyam. Doğrudan da, tale elə gətirdi ki, istəyimə çatdım, sinfimizdə 3 nəfər ali məktəbə qəbul oldu, onlardan biri də mən idim", – deyə 70 yaşlı yubilyar xatırlayır.

Hələ orta məktəbdə oxuyarkən Cahangir Qocayev müəllim və ya hüquqşünas olmaq istəyirmiş. Amma orta məktəbi bitirənə yaxın ədəbiyyat müəlliminin həyat yoldaşının dediyi bir söz onu bu fikrindən daşındırıb. Həmin qadın gənc Cahangirə deyib ki, müəllim ailəsini dolandıra biləcək qədər əməkhaqqı ala bilmir. Buna görə də müəllim olmaq fikrindən birdəfəlik daşınıb. 1966-cı ildə orta məktəbi bitirəndən sonra sənədlərini indiki Azərbaycan Texniki Universitetinə verib. Amma bu dəfə bəxti gətirməyib, gürcüstanlı müəllim onu imtahandan "kəsib". Bundan sonra sənədlərini gecə məktəbinə vermək istəsə də, Bakı şəhərində deyil, regionda vətəndaş qeydiyyatında olduğundan Cahangir Qocayevi ora da götürməyiblər: "Bundan sonra sənədlərimi Razində (indiki Bakıxanov qəsəbəsi) 17 saylı peşə məktəbinə verdim və neft-qaz çıxarma operatoru ixtisasına daxil oldum. Bir il orada oxudum, amma o dövrdə bu ixtisas o qədər hörmətli idi ki, elə bilirəm iki universitet qurtarmışam. Həmin peşə məktəbi məni bakılı elədi. Yaxşı oxuduğuma görə 45 manat təqaüd alırdım. Mədəndəki işimizin qazancından 30 faizini də bizə verirdilər. Məktəbi əla qiymətlərlə bitirdiyim üçün o vaxtkı Neft-Kimya İnstitutuna müsabiqədənkənar qəbul olundum. Altı il oxuyub ali təhsilli mühəndis diplomu aldım".

Bununla belə, bu inadkar kənd uşağı öz inadından əl çəkməyib. Bakıya gələndə ilk dəfə sənədlərini Azərbaycan Texniki Universitetinin sənaye və mülki tikinti ixtisasına versə də, qəbul etməmişdilər. O isə Neft-Kimya İnstitutunu bitirəndən sonra ilk dəfə Bakıya gələrkən imtahanda onu "kəsən" gürcüstanlı müəllimin acığına həyatını könüldən sevdiyi tikintiyə bağlayıb: "Neft-Kimya İnstitutunu bitirəndən sonra tikintinin öz ixtisasına uyğun sahəsində çalışdım. Hələ ikinci kursda oxuyanda Azərbaycan Pedaqoji Universitetində təhsil alan sinif yoldaşımla evləndim. Tələbə olsam da, normal dolandırdım, 165 manat maaş alırdım. Peşə məktəbini bitirdiyimə görə mədəndə işlə təmin olunmuşdum, axşam isə oxuyurdum. O vaxt qəzetlərdə mənim haqqımda çoxsaylı yazılar verilmişdi. İnstitutda Əli müəllim varıydı, o, mənim qəzetdə çıxan şəkillərimi tələbələrə nümunə kimi göstərirdi. İnstitutu bitirənə qədər iki övladımız oldu, məni əsgərliyə aparmadılar".

Cahangir Qocayev ali təhsili başa vurduqdan sonra həyat yoldaşı və iki körpə övladı ilə birlikdə doğma Saatlıya qayıdaraq, 1982-ci ilədək rayonda işləyib. Sonradan işləmək üçün yenidən Bakıya qayıdıb. Rayonda olduğu kimi, Bakıda da trestlərin birində işə düzəlib və qısa müddətdə məhz onun savadlı mütəxəssis kimi böyük nüfuz qazandırdığı tikinti müəssisəsi eyni fəaliyyətlə məşğul olan trestlərə nümunə oldu. Bir müddət sonra Bakıda Normativ Tədqiqat Stansiyası açılarkən Cahangir Qocayev uğurlu fəaliyyətini orada davam etdirib. Daha sonra Nazirlər Kabinetinin şöbə müdiri vəzifəsində çalışıb. "Müstəqil Azərbaycan Respublikasının tikinti konsepsiyasını mən yazmışam. O vaxt Arxitektura Komitəsinin sədr müavinini başqa yerə göndərmişdilər. Narazılığımı dilə gətirib dedim ki, o yaxşı müavin idi, işlər necə olacaq? Baş nazirin müavini Əli Təhməzov dedi ki, səni arxitekturaya müavin vəzifəsinə göndərəcəyik. Komitəmiz parçalanana qədər sədrin müavini oldum. Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bölünəndən sonra beynəlxalq əlaqələr və mətbuat xidməti şöbəsinə rəhbərlik etdim. Həmçinin, Prezident Yanında Dövlət İdarəçilik Akademiyasında dərs dedim".

**Hörmətli Cahangir müəllim!**

Biz də "İqtisadiyyat" qəzetinin kollektivi adından Sizi - qəzetimizin redaksiya heyətinin üzvünü və qəzetimizlə uzun illər əməkdaşlıq etmiş dəyərli alimi, peşəkar mühəndisi, alicənab bir şəxsiyyəti, səmimi insanı - yeni yaşınız münasibətilə ürəkdən təbrik edir, sizə can sağlığı, uzun ömür arzulayırıq. Çox sağ olun ki, varsınız! Cəmiyyətimizin Sizin kimi müdrik, dünyagörmüş ağsaqqallara hər zaman ehtiyacı olacaqdır.

Onun şəhərsalma fəlsəfəsi...

Artıq təqaüdə çıxsa da, yenə sevdiyi peşəsindən ayrılmaq istəmir, tikinti sahəsindəki 41 illik təcrübəsini bölüşmək, bildiklərini gənc mütəxəssislərə öyrətmək, yeri gələndə iradlarını bildirmək üçün fürsət axtarır. Cahangir Qocayevin ana prinsiplərindən biri odur ki, vətənə, xalqa və dövlətə xidmət etmək üçün haradasa işləməyin, vəzifə və səlahiyyət sahibi olmağın o qədər də önəmi yoxdur. O, hesab edir ki, insan işləmədən, vəzifə və səlahiyyət sahibi olmadan da xalqına və dövlətinə xidmət edə bilər: "Təqaüdə çıxsam da, yaşımın bu vədəsində vaxtımı səmərəli keçirməyə çalışıram. Ağsaqqallar Şurası İdarə Heyətinin üzvü kimi müəyyən tədbirlərdə iştirak edirəm, şəhərsalmadakı problemlər barədə öz fikrimi dövlət orqanlarına, ictimaiyyətə çatdırıram ki, aidiyyəti qurumlar lazımi tədbirlər görsünlər. Çünki şəhərsalma elə bir sahədir ki, o heç vaxt köhnəlmir, illər ötdükcə qədimləşir, dəyəri artır. Yəni, şəhər qədimləşdikcə qiymətə minir. Şəhərin təsərrüfat infrastrukturunun saxlanmasına, o cümlədən bağ və parklara xidmətin göstərilməsinə bu prinsipdən yanaşmaq lazımdır. Təəssüf ki, şəhər təsərrüfatının idarə olunmasında bu prinsip pozulub. Belə məsələlərə ciddi fikir verilməlidir".

Həmişə dostları yaşca özündən böyük olub. Cahangir Qocayev dost seçimində nə üçün belə etdiyini də özünəməxsus şəkildə cavablandırır: "Mən həmişə öyrənməyə həvəsli olmuşam. Ona görə də yaşca özümdən böyüklərlə dostluq emişəm ki, onlardan daha çox şey öyrənə biləm". Həyatı, düşüncəsi də özünün irəli sürdüyü şəhərsalma fəlsəfəsinə tam uyğundur. Yaşa dolduqca dəyəri daha da artır Cahangir Qocayevin!

**E.Mirsalah**

# Mərkəzi Bankda «Elektron Xidmətlər Portalı» istismara verildi



Mərkəzi Bankda bir pəncərə prinsipinə əsaslanan mərkəzləşdirilmiş Elektron Xidmətlər Portalı (www.e-cbar.az) yaradılmışdır. Adıçəkilən Portal üzərindən elektron statistik məlumatların toplanılması və emalı, təkmil elektron imzaların əldə edilməsi və avtomatlaşdırılmış qaydada ödənişlərin aparılması, saxta pul nişanlarının monitorinqi, elektron müraciətlərin qəbulu və cavablandırılması, habelə maliyyə savadlılığının artırılması üzrə informasiya resursuna və Hökumət Ödəniş Portalına çıxış imkanları təmin edilmişdir.

Sözügedən Portalın 01 oktyabr 2018-ci il tarixindən etibarən real istismara verilməsini nəzərə alaraq, ölkədə fəaliyyət göstərən kredit təşkilatlarının əməkdaşlarının iştirakı ilə 27-28 sentyabr 2018-ci il tarixlərində Mərkəzi Bankda müvafiq görüşlər keçirilmiş, xüsusilə "Saxta pul nişanlarının monitorinqi" və "Elektron statistik məlumat bazası və analitik hesabatlılıq" sistemləri daha geniş nümayiş etdirilmişdir.

Saxta pul nişanlarının monitorinqi sistemi vasitəsilə saxtakarlığa qarşı mübarizə sahəsində müvafiq dövlət orqanları ilə koordinasiyanın aparılması, pul nişanlarının ekspertizası üzrə həyata keçirilən biznes proseslərin avtomatlaşdırılması, müvafiq hesabatlığın formalaşdırılması məqsədilə saxta pul nişanları üzrə ölkədə vahid məlumat bazasının yaradılması və bu məlumatlara real vaxt rejimində çıxış imkanının əldə olunması təmin edilmişdir.

Bu məqsədlə vətəndaşlar sistemdə onlayn qeydiyyatdan keçərək, Mərkəzi Bankın əsas inzibati binasında və ərazi idarələrində milli pul nişanlarının dəyişdirilməsi və ekspertizası üzrə təqdim edilən xidmətlərdən yararlana bilərlər.

Eyni zamanda, vahid statistik platformanın yaradılması və maliyyə sektoru üzrə statistik məlumatların toplanması, emalı və yayımlanması ilə bağlı Mərkəzi Bankda sistemsarda olan "Elektron statistik məlumat bazası və analitik hesabatlılıq sistemi"nə məlumatların yüklənməsi prosesinin daha effektiv təşkili məqsədilə mövcud informasiya sistemi yenilənmiş və fəaliyyəti Elektron Xidmətlər Portalı üzərindən təmin edilmişdir.

# PAŞA Bank Azərbaycanda ilk dəfə SAP SuccessFactors heyətin idarə edilməsi üzrə bulud həllini tətbiq edib

Azərbaycanın aparıcı korporativ bankı PAŞA Bank SAP SuccessFactors bulud həlli əsasında öz işçi heyətinin mükafatlandırılması və effektivliyinin idarə edilməsi proseslərini uğurlu şəkildə avtomatlaşdırıb.

Tətbiq olunan yeniliklər sayəsində Bank artıq ilk aylarda yeni heyətin məhsuldarlığının qiymətləndirilməsi sistemini qurub, bu isə tapşırıqların qoyulması vaxtını 3 dəfə azaldıb və SAP Human Capital Management (SAP HCM) sistemində aparılan əməkhaqqının hesablanma dəqiqliyini 50% artırıb. Ən yeni bulud həllərinin tətbiqi Banka əsas effektivlik göstəricilərinin yerinə yetirilməsinə nəzarətlə yanaşı, əməkdaşların səriştələrini qiymətləndirməyə və liderlik keyfiyyətlərini inkişaf etdirməyə imkan verəcək: bir-biri ilə əlaqəli bütün göstəricilər vahid sistemdə nəzərə alınır. HR şöbəsinin mütəxəssisləri üçün nəzərdə tutulan analitik hesabatlar real vaxt rejimində avtomatik olaraq bir dəqiqədən az bir zamanda yaradılır.

Bankda tapşırıqların bir çoxu kollektivin qarşısında İdarə Heyətinin qəbul etdiyi qərarlara uyğun qoyulduğu üçün birbaşa rəhbərlər sistemdə bütün layihələrin yerinə yetirilmə statusunu, komanda tərkibini izləyir və bütün prosesi operativ şəkildə idarə edir. Bank əməkdaşları öz növbəsində məhsuldarlıqlarını sərbəst şəkildə izləyə və effektivliyin idarə olunması alqoritmlərini tənzimləyə bilir. Hesabat dövrünün yekunlarına görə, əməkdaşlar aylıq kompensasiya barədə təfsilatlı forma ilə təmin olunur.

"İşçi heyətin ən yeni bulud həlləri əsasında idarə edilməsi proseslərinin avtomatlaşdırılması PAŞA Bankın fəaliyyətinin bir çox aspektlərində öz əksini tapıb, həmçinin Bankın korporativ mədəniyyətində bəzi dəyişikliklərə səbəb olub. Belə ki, əməkdaşlar ümumbank məqsədlərinə nail olmaq üçün daha ahəngdar işləməyə başlayıb, bu isə 2018-2020-ci illər Strateji dövrün çərçivəsində agile-metodologiyasının və rəqəmsal həllərin tətbiqi üzrə planlarımızı çox gözəl əks etdirir.

Tapşırıqların daha dəqiq qoyulması və heyətin əsas effektivlik göstəricilərinin təfsilatı ilə hesabatlanması imkanı Bankda əsas proseslərə müsbət təsir edir və regional miqyaslı qabaqcıl maliyyə institutu kimi PAŞA Bankın mövqelərinin möhkəmləndirilməsinə öz töhfəsini verir", - deyə PAŞA Bankın İdarə Heyətinin sədri Taleh Kazımov qeyd edib.

PAŞA Bankın gələcək planlarına SAP SuccessFactors Recruitment-in heyətin seçilməsi və işə götürülməsi, həmçinin SAP SuccessFactors Onboarding-in kadrların təlimi və peşəkar inkişafı üzrə modullar sisteminə inteqrasiya daxildir.

# Paytaxt müəssisələrində 8 ayda 301,3 milyon manatlıq metal məmulatlar istehsal edilib



Cari ilin yanvar-avqust aylarında Bakı şəhərində metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində 301,3 milyon manatlıq məhsul istehsal olunub. Bakı şəhər Statistika İdarəsindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə metallurgiya sənayesində 32,8 faiz, hazır metal məmulatlarının istehsalı sahəsində isə 19,1 faiz artım müşahidə olunub. Əvvəlki ilin müvafiq dövrünə nisbətən sahə üzrə alüminium çubuqlar, millər və profillər 3,6 faiz, misdən elektrik izolyasiyası olmayan çoxdamarlı məftil, tros və kabellərin istehsalı 48,6 faiz, armaturun istehsalı 29,8 faiz artıb, qara metallardan digər konstruksiyaların istehsalı isə 73,7 faiz azalıb.

# Nəsimi – şeir, incəsənət və mənəviyyat festivalı



Sentyabrın 30-da Bakı Media Mərkəzində Nəsimi – şeir, incəsənət və mənəviyyat Festivalının bağlanış və Mədəniyyət Nazirliyinin "Söz" ədəbi layihəsi çərçivəsində Nəsiminin xatirəsinə həsr etdiyi ədəbi müsabiqənin qaliblərinin mükafatlandırılması mərasimləri keçirilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva mərasimlərdə iştirak ediblər.

Festivalın bağlanışı mərasimində "Mərhaba!" ədəbi-musiqili tamaşa təqdim olunub. Ecazkar musiqi, tamaşanın plastik həlli və əlbəttə ki, Nəsiminin qiymətli kəlamlarının aktyorların ifasında məharətlə səsləndirilməsi şairin tükənməz poetik dünyasını bir daha təcəssüm etdirib. Mütəfəkkir şairin qəzəllərindən səsləndirilən "Mərhaba, xoş gəldin, ey ruhi-rəvanım, mərhaba", "Mənəm ol tilsimi-pünhan ki, bu gün cahanə gəldim" və digər misralar hər kəsi bir daha Nəsimi şeiriyyətinin təsirinə salıb, insan, həyat, həqiqət axtarışı haqqında düşüncələrə dalmağa sövq edib.

Sonra Mədəniyyət Nazirliyinin "Söz" ədəbi layihəsi çərçivəsində İmadəddin Nəsiminin xatirəsinə həsr etdiyi ədəbi müsabiqənin qalibləri – Tahirə Məmmədova, Mehman Rəsulov, Rüstəm Tofiq, habelə ən gənc iştirakçı Aysel Babayeva və Mehriban Səttarova mükafatlandırılıblar.

Mükafatları Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva təqdim edib.

Qeyd edək ki, müsabiqə gənc, istedadlı şairlərin ortaya çıxarılması, cəmiyyətə tanıdılması məqsədilə həyata keçirilib. Ədəbi yarışa 90-dək gənc şair Nəsimi dühasından bəhrələnərək yazdıqları əsərləri təqdim ediblər. Münsiflər heyətinin qərarı ilə onlardan 17-si final mərhələsinə qalıb.

Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə Nəsimi – şeir, incəsənət və mənəviyyat Festivalının keçirildiyi dörd gün ərzində Bakıda və Şamaxıda ölməz şairin ruhunu və yaradıcılığını yaşadan, incəsənət və mənəviyyatı tərənnüm edən müxtəlif tədbirlər-sərgilər, mühazirələr, ədəbi-bədii gecələr, musiqili kompozisiyalar və s. təşkil olunub.

# UNEC-də tədrisin keyfiyyətində və elmi fəaliyyətin stimullaşdırılmasında yeni mərhələ



UNEC-də 2018/2019-cu tədris ilində İmtahan Mərkəzinin fəaliyyət istiqamətləri və təkmilləşdirilmiş diferensial əməkhaqqı sistemi barədə professor-müəllim heyətinin məlumatlandırılması məqsədilə fakültələrdə görüşlərə start verilib.

Maliyyə və mühasibatlıq fakültəsinin professor-müəllim heyəti ilə keçirilən görüşdə UNEC-in rektorunun müşaviri Elşən Bağırzadə cari tədris ili üçün təsdiq edilən "Azərbaycan Dövlət İqtisad Universitetində professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan diferensial əməkhaqqı sistemi haqqında qaydalar"a edilən dəyişikliklər barədə məlumat verib. Bildirib ki, həyata keçirilən dəyişikliklərin başlıca məqsədi UNEC-in tədqiqat universitetinə çevrilmə istiqamətindəki strateji hədəfinə nail olmaqdır. Belə ki, yenilənən qaydalara uyğun olaraq, sistem üzrə elmi fəaliyyətlərin payı 40%-dən 70%-ə yüksəldilib, "Web of Science" və "Scopus" platformalarına daxil olan nüfuzlu elmi jurnallarda məqalələrin, beynəlxalq nəşriyyatlarda monoqrafiyaların nəşr edilməsinə, istinadlara görə verilən ballar əhəmiyyətli dərəcədə artırılıb və "Scopus" bazasında elmi məruzələrin nəşr edilməsi də nəzərə alınıb.

Tədrisin keyfiyyətinin qiymətləndirilməsi və idarəedilməsi mərkəzinin direktoru Raqif Qasımov Elektron Universitet Modelində tətbiq edilən yeniliklər barədə çıxış edib. Peqaqoji heyətə müəllim kabinetinin interfeysi, tədris materiallarının yüklənməsi prosesi, apelyasiya modulu, sərbəst işlərin qəbulu mexanizmi, elan və bildirişlər bölmələri haqqında ətraflı məlumat çatdırılıb.

Tədrisin keyfiyyətinin qiymətləndirilməsi və idarəedilməsi mərkəzinin direktor müavini Söhrab İsayev imtahan prosesinin təkmilləşdirilməsi və mütəşəkkil təşkil olunması məqsədilə yaradılan İmtahan Mərkəzinin fəaliyyətindən bəhs edib. Qeyd olunub ki, İmtahan Mərkəzi fakültələr üzrə imtahan prosesinin koordinasiyasını, imtahan öncəsi hazırlıq işlərini, müraciətlərin operativ həlli, təhlillərin aparılması üçün hesabatların tərtibi və digər fəaliyyətləri icra edəcəkdir.

# Peşə təhsili və insan kapitalı

Bu günlərdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Peşə təhsili və insan kapitalı" adlı elmi-praktiki, metodiki jurnalı işıq üzü görmüşdür. Peşə təhsili sahəsindəki innovasiyaları, müəllim və mütəxəssislərin qabaqcıl iş təcrübəsini işıqlandıran, texniki-peşə təhsilinin müasir standartlara uyğun həyata keçirilməsinə, bu sahədə çoxcəhətli fəaliyyətin dəstəklənməsinə təkan verən bu jurnal cəmiyyətdə fəal maarifləndirmə kampaniyasının aparılması baxımından da uğurlu bir addımdır.

İldə dörd dəfə nəşr olunması nəzərdə tutulan jurnalda pedaqogika, texnika, iqtisadiyyat, informatika, ekologiya və digər fundamental elm bölmələri üzrə məqalələr, metodiki yazılar dərc edilir. Jurnalın 104 səhifədən ibarət olan 1-ci sayı 8 bölmədən ibarətdir, Azərbaycan, rus və ingilis dillərində tərtib edilmişdir. Jurnalın redaksiya heyətinin sədri i.e.d., prof. F.F.Mustafayev, baş redaktoru f.e.f.d. Ş.Ş.Balakişiyevdir.

Jurnal Prezident İlham Əliyevin "Biz maddi dəyərləri insan kapitalına çevirməliyik" kəlamı ilə başlayır. Prezident İlham Əliyevin təhsil sahəsinə ayırdığı diqqət və qayğı "Rəsmi sənədlər" adlı birinci bölmədə daha geniş əks olunmuşdur. Burada "Peşə təhsili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı və qanunun özü verilmişdir.




İkinci bölməsi "Mütəxəssis sözü" adlanan jurnalda mövcud qanunun ölkəmizdə peşə təhsilinin və dolayı yolla iqtisadiyyatın bütün sahələrinə xidmət etməsindən, əmək bazarında tələb olunan ixtisaslı işçi qüvvəsi təminatının artırılmasına və iqtisadiyyatın inkişafına töhfə verəcək imkan olmasından, Peşə Təhsili üzrə Dövlət Agentliyinin fəaliyyətindən və s. bəhs olunur.

Jurnalın "Pedaqogika" adlanan üçüncü bölməsində məktəblərdə həyata keçirilən peşəyönümü işinin sistemli və tam aparılmasının önəmi, onun sosial-psixoloji xidmətlə əlaqləndirilməsinin vacibliyi qeyd olunmuşdur. Həmçinin, peşə təhsilində kadr hazırlığı məsələsinin əhəmiyyəti, hazırki təhsil sistemində mövcud olan problemlər və bunlarla bağlı təkliflər də bu bölmədə öz əksini tapmışdır.

"İqtisadiyyat" adlanan dördüncü bölmə ekologiyada sinergetizm məsələlərinə, ətraf mühitlə qarşılıqlı əlaqəsi olan sistemlərin təşkil olunması və inkişafının əsas qanunauyğunluqlarının təyininə həsr edilmişdir.

Jurnalın beşinci bölməsi "Texnika" adlanır və təhsilanlar arasında robot texnikasına marağı artırmaq və onlarda robot texnologiyalarından sərbəst istifadə bacarığını formalşadırmaq məqsədi daşıyır.

"Metodika və innovasiyalar" adlanan altıncı bölmədə professional mütəxəssislərin hazırlanmasında fənlərarası tədqiqat metodunun əhəmiyyətindən, eyni zamanda, təhsilin keyfiyyətinin artırılmasında monitorinq və qiymətləndirmənin rolundan bəhs edilir.

Peşə təhsilində kvalifikasiya məsələləri və peşə təhsili müəllimlərinin peşəkar inkişaf imkanlarına həsr olunan yeddinci bölmə "Kadr hazırlığı və müəllim peşəkarlığı" adlanır.

Jurnalın "Sahibkarlarla əməkdaşlıq" adlı sonuncu – səkkizinci fəsli işəgötürənlərlə peşə təhsili müəssisələri arasındakı əməkdaşlığın hüquqi aspektlərinə dair məsələləri əhatə edir və məqalələrin tərtibatı qaydalarının qeyd olunması ilə bitir.

Bütövlükdə, bu jurnalın nəşri ölkəmizdə son illər peşə təhsilinə xüsusi diqqət və əhəmiyyət verildiyini bir daha sübut edir. Ümid edirik ki, peşə təhsili sahəsində ilk olan bu nəşr uzun illər insanların maariflənməsinə, bu istiqamətdə yeni nailiyyətlər qazanmasına xidmət edəcək.

# Azərbaycanın turizm imkanları Asiyada təqdim olunacaq

Bunu Trend-ə açıqlamasında Azərbaycan Turizm Assosiasiyasının sədri Nahid Bağırov deyib.

N.Bağırovun sözlərinə görə, hazırda assosiasiya Dövlət Turizm Agentliyi ilə birgə Pakistan və Sinqapurda iki sərgidə iştirak etməyə hazırlaşır: "Oktyabrın 2-4-də Pakistanda turizm sərgisində, daha sonra oktyabrın 17-19-da Sinqapurda sərgidə birgə iştirak edəcəyik. Fikrimcə, bu sərgilərdə iştirak Asiya ölkələrinin Azərbaycana diqqətini artırmağa imkan verəcək".

Assosiasiya sədri qeyd edib ki, hazırda Azərbaycanın turizm potensialının təşviq olunması üzrə böyük iş aparılır: "Ofislərimiz müxtəlif ölkələrdə aktiv fəaliyyət göstərir. Bundan başqa, bu işə Dövlət Turizm Agentliyi fəal şəkildə qoşulub və həm bizimlə birgə, həm də özləri Azərbaycanın turizm istiqaməti kimi populyarlaşması üçün böyük iş aparır". Qeyd edək ki, 2018-ci ilin yanvar-iyul ayları ərzində Azərbaycana dünyanın 191 ölkəsindən 1655,3 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,1 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.

Gələnlərin 31,5 faizi Rusiya, 19,8 faizi Gürcüstan, 10,3 faizi Türkiyə, 10 faizi İran, 3,5 faizi BƏƏ, 2,4 faizi İraq, 2 faizi Ukrayna, 20,4 faizi digər ölkələrin vətəndaşları olub.

# Göyçayda"Bakcell"in yeni rəsmi diler mağazası açıldı

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi olan Bakcell şirkəti, təklif etdiyi yüksək keyfiyyətli xidmət və məhsullarını müştərilərə daha da yaxın etmək üçün ölkənin bütün regionları üzrə öz satış və xidmət mərkəzləri şəbəkəsini genişləndirməyə davam edir. Bu fəaliyyətin davamı olaraq Göyçayın mərkəzində, Heydər Əliyev küçəsində "Bakcell"in yeni rəsmi diler mağazası istifadəyə verilib.

Tam yeni konsepsiya əsasında qurulmuş müasir satış mərkəzində şirkətin məhsul və xidmətlərinin tam çeşidi ilə yanaşı, ən son mobil cihazlar və aksesuarlar təklif edilir. Göyçay sakinləri yeni diler mağazasında "Bakcell"in bütün məhsul və xidmətləri barədə məlumat ala, mobil nömrə və istənilən cihazı əldə edə bilərlər.

"Bakcell özünün ən innovativ məhsul və xidmətlərini Azərbaycanın bütün bölgələrində yaşayan abunəçilərinə təqdim etmək üçün əlindən gələni edir. Bu bölgələr sırasında Göyçay da xüsusi yerə malikdir. Bakcell şirkətinin 4G xidməti artıq bütün Bakı və Abşeron ərazisini əhatə edir. Eyni zamanda, biz ölkənin 30-dan çox rayon və şəhər mərkəzində 4G şəbəkəsi qurmuşuq. Onlardan biri Göyçay rayonudur. Hazırda rayon mərkəzində bizim 4G xidmətimiz var və bu xidmətlərin əhatə dairəsini genişləndirməyə davam edirik. İnanırıq ki, yeni diler mağazamızın açılışı Göyçay sakinləri üçün faydalı olacaq", - deyə Bakcell şirkətinin baş satış direktoru Zaur Bayramov bildirib.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, yeni diler mağazasının açılışı ilə bağlı həmin dükandan istənilən mobil telefon alan müştəriyə əlavə 1 ədəd digər model mobil telefon HƏDİYYƏ veriləcək. Müştərilər bu unikal fürsətdən bir ay ərzində yararlana biləcəklər.



# Zaqataladakı yeni Satış və Xidmət Mərkəzinə gələn ilk 50 abunəçi "Bakcell"dən hədiyyə qazanıb

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti növbəti Satış və Xidmət Mərkəzini Zaqatala şəhərindəki abunəçilərinin istifadəsinə verib. Beləliklə, Şirkət bir-birinin ardınca 3 gündə 3 yeni mərkəzin - Göyçayda diler mağazasının, Qəbələ və Zaqatalada isə satış və xidmət mərkəzlərinin açılışını edib.

Bakcell özünün yüksək sürətli 4G şəbəkəsi ilə yanaşı, satış və xidmət şəbəkəsinidə Azərbaycanın regionlarına doğru genişləndirir. Bu fəaliyyət planı çərçivəsində Zaqatalada açılmış yeni Satış və Xidmət Mərkəzi Bakcell abunəçilərinə tam çeşiddəmüştəri xidmətlərindən yararlanmaq, eyni zamanda, ən son model mobil cihazlar, mobil nömrə və aksessuarlar əldə etmək imkanı verir.



"Bakcell ölkənin ən innovativ məhsul və xidmətlərini və ən sürətli mobil internetini Azərbaycanın bütün bölgələrində yaşayan abunəçilərinə təqdim etmək üçün böyük işlər görür. Bizim 4G xidmətimiz artıq Zaqatala da fəaliyyət göstərir və yerli əhali Bakcell şəbəkəsinin etibarlılığı və yüksək sürətindən tam şəkildə yararlanmaq imkanına malikdir. İnanıram ki, açdığımız yeni Satış və Xidmət Mərkəzi abunəçilərimizə əlavə rahatlıq və üstün müştəri təcrübəsi bəxş edəcək", - deyə Bakcell şirkətinin baş icraçı direktoru Nikolai Beckers bildirib.

Yeni xidmət mərkəzinə baş çəkən ilk müştərilər maraqlı sürprizlə qarşılaşıblar. Belə ki, buradakı xidmətlərdən faydalanan ilk 50 abunəçi "Bakcell"dən pulsuz 4G data kartı və 1 ay pulsuz İnternet hədiyyə qazanıb.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500